

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

12 avqust 2026-cı il, çərşənbə

№ 142 (7209)

Qiyməti 60 qəpik


# Prezident və birinci xanım Naxçıvanda...






Bax səh. 2

# Naxçıvan, azad olunmuş ərazilər - Şərqi Zəngəzur, Qarabağ vahid konsepsiya əsasında inkişaf etməlidir

Bax səh. 3

## Azərbaycan - İran: Münasibətlərdə tarixə və müasir reallıqlara əsaslanan yeni mərhələ



Bax səh. 5

## Vaşinqtondan başlayan yeni sülh dövrü...

Bakının sülh təşəbbüsü qlobal təhlükəsizliyə və iqtisadi maraqlara hədəflənib

Bax səh. 4

## "Terrorsuz Türkiyə" uğrunda...



Bax səh. 6

## Avropa iqtisadiyyatını nə gözləyir?

Bax səh. 6

## Məkkə üçbucağı



Bax səh. 7

## Ermənistan KTMT-də səsvermə hüququndan məhrum ediləcək?

Bax səh. 6

# Prezident və Birinci xanım Naxçıvanda...










Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 11-də Naxçıvan Muxtar Respublikasına səfərə gəliblər.

Prezident və Birinci xanım xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət ediblər.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və birinci xanım abidənin önünə gül dəstəsi qoyub, Ulu Öndərin xatirəsini ehtiramla yad ediblər.

***

Avqustun 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Naxçıvan şəhərində inşa edilən, ümumi gücü 50 MVt olan "Şəms 1" və "Qərbi Üfüq" Günəş Elektrik stansiyalarında görülən işlərlə tanış olublar.

Energetika naziri Pərviz Şahbazov layihələrlə bağlı dövlətimizin başçısına və birinci xanıma məlumat verdi.

Bildirildi ki, 25 MVt-lıq "Şəms 1" layihəsi müəyyən edilmiş bərpaolunan enerji mənbələri ərazisində 52 hektar sahədə həyata keçirilir. "CEİ Naxçıvan" MMC tərəfindən artıq 10 MVt gücündə Günəş panellərinin quraşdırılması başa çatdırılıb. Tikinti-quraşdırma işlərinin bu ilin noyabrında yekunlaşdırılması planlaşdırılır. Şəbəkə infrastrukturunun inşası yekunlaşdıqdan sonra stansiya istismara veriləcək. Hazırda layihənin icrasında 218 nəfər işçi çalışır.

Stansiyanın istismara verilməsindən sonra illik təxminən 57 milyon kilovat-saat elektrik enerjisinin istehsal olunacağı və 19 minə yaxın ev təsərrüfatının enerji ilə təmin ediləcəyi planlaşdırılır. Bununla da ildə təxminən 26 min ton karbon qazı emissiyasının qarşısı alınacaq və 12 milyon kubmetr təbii qaza qənaət ediləcək.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya "CEİ Naxçıvan" MMC-nin daxil olduğu AGEC şirkətlər qrupunun ölkəmizdə icra etdiyi digər layihələr barədə də məlumat verildi.

Dövlətimizin başçısı və birinci xanım gücü 25 MVt olan "Qərbi Üfüq" Günəş Elektrik Stansiyasında görülən işlərlə də tanış oldular.

Diqqətə çatdırıldı ki, "Enerso" MMC tərəfindən stansiyanın inşası ilə bağlı topoqrafik işlər artıq tamamlanıb, geoloji tədqiqat işləri isə davam edir. Cari ilin sonunadək tikinti işlərinə başlanılması nəzərdə tutulur. Layihənin bərpaolunan enerji mənbələri ərazisi kimi müəyyənləşdirilmiş 50 hektar sahədə həyata keçirilməsi nəzərdə tutulur. Stansiyanın istismara verilməsindən sonra illik təxminən 61 milyon kilovat-saat elektrik enerjisi istehsal olunacaq və bu, 21 minə yaxın ev təsərrüfatının enerji ilə təmin olunmasına imkan verəcək. Eyni zamanda, ildə təxminən 26 min ton karbon qazı emissiyasının qarşısının alınacağı və 12 milyon kubmetr təbii qaza qənaət ediləcəyi proqnozlaşdırılır.

Ümumilikdə Naxçıvanda 688 hektar sahə Günəş elektrik stansiyalarının tikintisi məqsədilə bərpaolunan enerji mənbələri ərazisi kimi müəyyən edilib.

Azərbaycanda bərpaolunan enerji mənbələri üzrə qoyuluş gücü 2070 MVt-dır. Bunun da 108 MVt-ı, yəni 5.2 faizi Naxçıvanın payına düşür. "Şəms 1" və "Qərbi Üfüq" stansiyalarının istifadəyə verilməsi ilə bu rəqəm 158 MVt olacaq.

***

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 11-də Naxçıvan Sənaye Parkının təməlqoyma mərasimində iştirak ediblər.

iqtisadiyyat naziri Mikayıl Cabbarov dövlətimizin başçısına və birinci xanıma Naxçıvan Sənaye Parkı barədə məlumat verdi.

Bildirildi ki, bu sənaye parkı Azərbaycan Prezidentinin 2024-cü ildə imzaladığı Fərmanla yaradılıb. Naxçıvan Sənaye Parkının fəaliyyətinin təşkili məqsədilə ilkin olaraq ərazinin istifadəyə yararlı vəziyyətə gətirilməsi, növbəti mərhələdə isə xarici və daxili infrastrukturun, o cümlədən elektrik və istilik enerjisi, qaz, su, rabitə, nəqliyyat, istehsal, inzibati, sosial və digər obyektlərin yaradılması nəzərdə tutulur. Naxçıvan şəhərinin cənub-qərb hissəsində, Naxçıvan-Sədərək avtomobil yolunun cənubunda yerləşən bu sənaye parkı 310 hektar ərazini əhatə edəcək. Artıq sənaye parkına potensial sahibkarların cəlb olunması istiqamətində bir sıra layihələr üzrə danışıqlar aparılır.

Ölkəmizdə hazırda 8 sənaye parkı (Sumqayıt Sənaye Parkı, Mingəçevir Sənaye Parkı, Qaradağ Sənaye Parkı, Pirallahı Sənaye Parkı, Ağdam Sənaye Parkı, Hacıqabul Sənaye Parkı, "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı, Balaxanı Sənaye Parkı) fəaliyyət göstərir.

Bundan başqa, Gəncə şəhərinin və Şəmkir rayonunun inzibati ərazilərində yaradılacaq Qərb Sənaye Parkında infrastrukturun qurulması üçün texniki şərtlərin alınması prosesi aparılır.

Bu sənaye parklarında ümumilikdə 184 rezident qeydiyyata alınıb ki, onların da 101-i artıq fəaliyyət göstərir. İndiyədək rezidentlər tərəfindən 7,1 milyard manatdan çox investisiya cəlb edilib, 11 min 500-dən çox iş yeri yaradılıb.

Xatırladaq ki, 2026-cı ilin iyulun 1-ə olan məlumata görə, sənaye parklarında ümumilikdə 21,4 milyard manatlıq məhsul istehsal edilib, bunun da 6,7 milyard manatlıq hissəsi ixrac olunub.

***

Avqustun 11-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Naxçıvan şəhərində istifadəyə veriləcək elektrik mühərrikli yeni avtobuslara baxıb, Naxçıvan Muxtar Respublikasının dəmir yolu infrastrukturunda aparılan yenidənqurma işləri ilə tanış olublar.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Rövşən Rüstəmov dövlətimizin başçısına və birinci xanıma görülmüş işlər barədə məlumat verdilər.

Bildirildi ki, "Naxçıvan şəhərində ictimai nəqliyyatın tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında" Prezident İlham Əliyevin ötən il imzaladığı Sərəncama əsasən, şəhərin ictimai nəqliyyat sistemində sərnişindaşımanın yalnız elektrik mühərrikli avtobuslarla təşkili məqsədilə ölkəmizdə yığılan və uzunluğu 8,7 metr olan, hər biri 53 sərnişin tutumuna malik "BYD" markalı 60 avtobus alınıb, enerjidoldurma cihazları quraşdırılıb, avtobuslara xidmət göstərilməsi üçün depo infrastrukturu təkmilləşdirilib.

Hərəkətin idarə olunması üçün rəqəmsal dispetçer və monitorinq sistemi quraşdırılıb, həmçinin avtobuslarda bank kartları, QR kod, "Apple Pay" və "Google Pay" vasitəsilə nağdsız ödəniş imkanları yaradılıb.

Bu layihənin icrası ilə Naxçıvan şəhərində 9 marşrut xətti üzrə il ərzində 4,5 milyon sərnişinə yüksək səviyyədə xidmət göstərilə bilər.

Monitorinq mərkəzi vasitəsilə avtobusların hərəkəti real vaxt rejimində izləniləcək. Bu da sərnişinlərin təhlükəsiz və fasiləsiz daşınmasına nəzarəti təmin edəcək.

"BakuBus" MMC-nin Naxçıvan şəhərində fəaliyyətə başlaması ictimai nəqliyyat xidmətlərinin keyfiyyətinin yüksəldilməsinə və ödəniş proseslərinin tam nağdsız formata keçirilməsinə mühüm töhfə verəcək.

Üç hektara yaxın ərazisi olan depoda zəruri infrastruktur yaradılıb, o cümlədən texniki baxış və təmir postları, avtomatlaşdırılmış uçot sistemli elektrikdoldurma stansiyası və saatda 15 avtobusun yuyulmasına imkan verən kompleks quraşdırılıb. Depo ikinövbəli iş rejimində fəaliyyət göstərəcək və 200 sürücü, 22 inzibati heyət işlə təmin ediləcək. Sürücülərin aylıq əməkhaqqı isə 1000 manatdan çox olacaq.

Dövlətimizin başçısına və birinci xanıma Naxçıvan Muxtar Respublikasının dəmir yolu infrastrukturunda görülən yenidənqurma işləri barədə də məlumat verildi.

Qeyd edildi ki, Naxçıvan dəmir yolu xəttinin layihələndirilməsinə və tikinti işlərinin icrasına 2025-ci ildən başlanılıb. Hazırda xəttin uzunluğu 188 kilometrdir, yeni layihəyə əsasən isə bu göstərici 194,2 kilometr təşkil edəcək. 10 stansiyanın və 3 sərnişin dayanacağı platformasının yenidən qurulması nəzərdə tutulur.

Hazırda Naxçıvan dəmir yolu xəttinin Salamməlik stansiyasından Ermənistanla dövlət sərhədinədək olan 7 kilometrlik hissəsi üzrə layihələndirmə işləri tamamlanıb və tikinti işlərinə başlanılıb. Ərazidə mühəndislik və infrastrukturun yaradılması işlərinin bir qismi yekunlaşıb, digər hissəsi isə davam edir.

Əraziyə hazırda 7 kilometrlik rels və 7 min ədəd şpal daşınıb. Burada sentyabrın sonunadək yolun üst quruluşunun 6,3 kilometrlik hissəsinin quraşdırılması planlaşdırılır. Sərhəddən 700 metr məsafədə yerləşən qalan hissədə isə minatəmizləmə işləri tamamlandıqdan və layihələrin uzlaşdırılması məqsədilə TRIPP marşrutu üzrə layihə hazır olduqdan sonra tikinti-quraşdırma işlərinə başlanılması nəzərdə tutulur. Eyni zamanda, Sədərək stansiyasından Türkiyə ilə dövlət sərhədinədək olan hissənin gələcəkdə Türkiyə tərəfindən icra edilən Qars-İğdır-Dilucu dəmir yolu ilə texniki və layihə baxımından uyğunlaşdırılması planlaşdırılır. Hazırda qeyd olunan dəmir yolu xətti üzrə Türkiyə tərəfindən layihələndirmə işləri aparılır.

***

Avqustun 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan DOST Agentliyinin Naxçıvan Regional DOST Mərkəzinin açılışında iştirak ediblər.

Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev mərkəzdə yaradılmış şərait barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verdi.

Bildirildi ki, bu mərkəzdə əhaliyə 164 sosial xidmət göstəriləcək. Ümumilikdə 117 işçinin və 50 könüllünün fəaliyyət göstərəcəyi mərkəzdə gün ərzində orta hesabla 500-600 vətəndaşın qəbulu nəzərdə tutulur.

Bütün xidmətlər "Bir pəncərə" prinsipi əsasında təşkil olunub və Naxçıvan sakinlərinə rahat, operativ və əlçatan şəkildə təqdim










ediləcək. Bu yanaşma müxtəlif sosial istiqamətlər - pensiya, əmək və məşğulluq, sosial müavinətlər, əlillik, övladlığagötürmə və digər sosial xidmətlərin vahid məkanda, şəffaf formada göstərilməsinə imkan yaradır.

Əlilliyi olan şəxslərin mərkəzdə tibbi-sosial ekspertizası, onların fərdi ehtiyaclarına uyğun reabilitasiya vasitələri ilə təminatı, eyni zamanda, reabilitasiya xidmətlərindən yararlanmaları üçün ixtisaslaşmış reabilitasiya müəssisələrinə göndərişlərin rəsmiləşdirilməsi də icra ediləcək.

Dövlətimizin başçısı və birinci xanım qabaqcıl beynəlxalq istehsalçı şirkətlərin məhsulları olan protezlərə də baxdılar. Bu protezlər istifadəçilərə təbii fizioloji, sərbəst və təhlükəsiz hərəkət, müxtəlif səth və sürətlərə uyğunlaşma, həmçinin sosial həyata və əmək fəaliyyətinə daha sürətli inteqrasiya imkanı yaradır. İndiyədək 500-dən çox hərbçiyə 620 yüksək texnologiyalı protez təqdim olunub. Həmçinin yüksək texnologiyalı reabilitasiya və tibbi-sosial xidmətlər sayəsində müharibə ilə əlaqədar əlilliyi olan 300-dək şəxs əvvəlki sağlamlığına qovuşub.

Ölkəmizdə müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin yüksək texnologiyalı protezlərlə təminatı üzrə işlər nəcib fəaliyyəti ilə seçilən Heydər Əliyev Fondunun təşəbbüsü ilə başladılıb.

Əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təminatının gücləndirilməsi üçün dövlətimiz tərəfindən həyata keçirilən sosial müdafiə siyasəti nəticəsində reabilitasiya vasitələrinin çeşidinin sayı 57-dən 130-a çatdırılıb. Əlilliyi olan şəxslər bu ilin əvvəlindən bəri 300 minədək müxtəlif növ reabilitasiya vasitələri ilə təmin edilib.

Dövlətimizin başçısı və birinci xanım nazirliyin inklüziv mərkəzlərinin benefisiarları tərəfindən hazırlanmış bədii oyma, xalçaçılıq, dulusçuluq, təsviri incəsənət, vitraj, floristika və digər sənət növləri üzrə əl işlərindən ibarət sərgiyə baxdılar. Həssas qruplardan olan şəxslərin yaradıcılıq potensiallarının üzə çıxarılması və iqtisadi fəallıqlarının dəstəklənməsi məqsədilə yaradılmış "dostart.az" portalı vasitəsilə həmin əl işlərinin onlayn satışı həyata keçirilir və bu təşəbbüs onların əmək bazarına inteqrasiyasına mühüm töhfə verir.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Naxçıvan Regional İnformasiya Mərkəzinin bazasında yaradılması nəzərdə tutulan Naxçıvan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin layihəsi də təqdim edildi.

Qeyd olundu ki, əlilliyi olan şəxslərə hazırda 13 istiqamət üzrə göstərilən sosial bacarıqların inkişafı xidmətlərinin yeni mərkəzdə daha da genişləndirilərək 20-yə çatdırılması nəzərdə tutulur.

Son illərdə ölkəmizdə həyata keçirilən sosial islahatlar dünya səviyyəsində yüksək qiymətləndirilib və müxtəlif beynəlxalq təşkilatlar tərəfindən 300-dən artıq mükafat və sertifikatla təltif olunub. Onların arasında "Hamı üçün inklüziv və bərabər sosial təminat xidmətləri" təşəbbüsünə görə BMT-nin Dövlət Xidmətləri Mükafatı da var.

Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılmış DOST mərkəzləri sosial xidmətlərin göstərilməsində keyfiyyətcə yeni mərhələnin formalaşmasına səbəb olub. Bu mərkəzlərdə indiyədək vətəndaşlara 164 növ xidmət, ümumilikdə isə 4,6 milyon sosial xidmət göstərilib, xidmətlərdən məmnunluq səviyyəsi isə təxminən 99 faiz olub.

Hazırda DOST şəbəkəsinin ölkə üzrə genişləndirilməsi istiqamətində işlər davam etdirilir. 2026-2027-ci illərdə Naxçıvan Muxtar Respublikasının bütün rayon mərkəzlərində DOST qəbul şöbələrinin yaradılması, 2030-cu ilədək isə ölkə üzrə 18 DOST mərkəzinin, o cümlədən 60 şöbə və məntəqədən ibarət geniş xidmət şəbəkəsinin formalaşdırılması nəzərdə tutulur.

***

Sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Naxçıvanda Əlahiddə Ümumqoşun Orduda yeni yaradılan əməliyyat (komando) hərbi hissələrinə Döyüş bayraqlarının verilməsinə həsr olunmuş mərasimdə iştirak ediblər.

***

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 11-də "Naxçıvan" Mehmanxana Kompleksinin təməlqoyma mərasimində iştirak ediblər.

Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına və birinci xanıma görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, kompleksin ümumi sahəsi 1 hektardan çox olacaq. Ərazidə yeddimərtəbəli mehmanxana binası ilə yanaşı, texniki binalar və köməkçi sahələr də yaradılacaq. Mehmanxanada eyni vaxtda 307 qonaq qala biləcək. Burada 131 otaq, o cümlədən fiziki məhdudiyyətli şəxslər üçün otaqlar nəzərdə tutulub. Mehmanxana binasında müxtəlif ictimai-iaşə obyektləri, kafe, restoran, tədbir və ziyafət zalı yaradılacaq. Bu zal ziyafət zamanı 350, konfrans vaxtı isə 500 yerlik olacaq. Burada, həmçinin görüş, iclas və iş otaqları, idman zalı da yaradılacaq. Eyni zamanda, yeraltı avtodayanacağın inşası da nəzərdə tutulur.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 11-də "Naxçıvan şəhərinin 2044-cü ilədək inkişafına dair Baş Planı" ilə tanış olublar.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev dövlətimizin başçısına və birinci xanıma yeni Baş Plan, şəhərin gələcək inkişafı üzrə müəyyən edilmiş hədəflər və görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, Baş Plan "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"na uyğun olaraq, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sifarişi əsasında "Azərmemarlayihə" Dövlət Baş Layihə İnstitutu və beynəlxalq məsləhətçi şirkət "Chapman Taylor" tərəfindən hazırlanıb.

Azərbaycanın ən qədim yaşayış məskənlərindən olan Naxçıvan şəhərinin müstəqillik dövründə ilk dəfə hazırlanan yeni Baş Planı onun perspektivdə məkan inkişafının vahid strateji baxışını müəyyən edir. Konsepsiya şəhər mərkəzinin yenilənməsi, rekreasiya zonalarının genişləndirilməsi, dayanıqlı mobilliyin təşviqi, yaşayış və sosial infrastrukturun gücləndirilməsi və turizm potensialının daha səmərəli reallaşdırılması əsasında formalaşdırılıb.

Şəhərin əsas inkişaf istiqamətlərindən biri onun mərkəzi hissəsinin yenidən formalaşdırılmasıdır. Bu məqsədlə 74 hektar ərazini əhatə edən mərkəzi rayonun müfəssəl planı, həmçinin bu rayon daxilində mövcud planlaşdırma strukturu qorunmaqla 12,5 hektarlıq ərazini əhatə edən hissə üçün yeni memarlıq konsepsiyası hazırlanıb. Layihədə şəhər mərkəzinin daha canlı, yığcam və əlçatan məkana çevrilməsi nəzərdə tutulur. Konsepsiyaya əsasən, tarixi əhəmiyyət kəsb etməyən köhnəlmiş tikililərin mərhələli şəkildə yenilənərək müasir çoxmərtəbəli yaşayış və çoxfunksiyalı binalarla əvəzlənməsi, ərazidə yeni inzibati kompleksin yaradılması, mərkəzi meydanın isə yeni landşaft və kiçik memarlıq elementləri əlavə edilməklə insanyönümlü ictimai məkana çevrilməsi təklif edilir. Bütün bu yanaşmalar nəticəsində yaşayış, iş, xidmət, istirahət və ictimai funksiyaların bir-birini tamamladığı müasir şəhər mərkəzi formalaşdırılacaq.

Ekoloji infrastrukturun şəhərin ayrılmaz hissəsinə çevrilməsini hədəfləyən Baş Planın icrası dövründə mövcud yaşıllıq sistemi də genişləndiriləcək, Naxçıvançay boyunca ərazi şəhər həyatına inteqrasiya olunacaq, burada yeni parklar, istirahət zonaları və ictimai məkanlar yaradılacaq. Nəticədə adambaşına düşən yaşıllıq sahəsinin 15 kvadratmetrdən 27 kvadratmetrə çatdırılması nəzərdə tutulur.

Şəhər mobilliyinə yanaşma da yeni prinsiplər üzərində qurulub. Dayanıqlı, ekoloji təmiz nəqliyyat həllərinin tətbiqini dəstəkləyən konsepsiyaya əsasən, küçə-yol şəbəkəsinin ümumi uzunluğu 188,4 kilometr, velosiped infrastrukturunun uzunluğu isə 122 kilometr təşkil edəcək. Bu, ümumi küçə-yol şəbəkəsinin 65 faizdən çoxunun velosiped hərəkəti üçün uyğunlaşdırılması deməkdir.

Baş Planda Naxçıvanın zəngin tarixi-mədəni irsi və əlverişli coğrafi mövqeyi şəhərin turizm potensialını formalaşdıran əsas üstünlüklər kimi dəyərləndirilir. Tarixi irsin qorunması ilə yanaşı, xidmət sahələrinin genişləndirilməsi və şəhər mühitinin keyfiyyətinin yüksəldilməsi turizm sektorunun rəqabətqabiliyyətliliyinin artırılmasına imkan yaradacaq.

Naxçıvanın gələcək inkişafı şəhərin artım potensialı nəzərə alınmaqla planlaşdırılıb. Baş Plana əsasən, göstərilən müddət ərzində məskunlaşma ərazisinin 1831 hektardan 2630 hektara çatdırılması nəzərdə tutulur. Bununla şəhərin mövcud ərazisinin təxminən 44 faiz genişlənəcəyi, əhali sayının isə 97 min 200 nəfərdən 130 min nəfərə çatacağı proqnozlaşdırılır.

Əhalinin sıxlığı nəzərə alınaraq yaşayış fondunun 3,9 milyon kvadratmetrə çatdırılması hesablanıb. Bu, orta hesabla adambaşına 30 kvadratmetr yaşayış sahəsinin təmin olunmasına imkan verəcək və yeni yaşayış məhəllələrinin sosial, nəqliyyat və mühəndis infrastrukturu ilə kompleks şəkildə formalaşdırılmasına şərait yaradacaq.

Şəhərin böyüməsi ilə paralel olaraq sosial infrastruktur da genişləndiriləcək. Təhsil və səhiyyə xidmətləri nəzərə alınaraq, ümumtəhsil müəssisələrinin tutumu 23 min 400, məktəbəqədər təhsil müəssisələrinin tutumu 7 min 800, xəstəxanaların çarpayı fondu isə 650 yerə çatdırılacaq. Xidmət, nəqliyyat və logistika, sənaye, tikinti, turizm və aqrar sektorların inkişafı hesabına məşğulluq səviyyəsinin də 40 faizə yaxın artaraq 78 min nəfərə çatacağı gözlənilir.







Beləliklə, Orta Dəhlizin strateji əhəmiyyətli hissəsi olan Naxçıvan şəhəri 2044-cü ilədək daha böyük potensiala malik yaşayış məkanı kimi inkişaf edəcək. Şəhərin tarixi-mədəni irsini müasir şəhərsalma prinsipləri ilə uzlaşdıran yeni Baş Plan onun dayanıqlı, inklüziv və insanyönümlü regional mərkəz kimi inkişafının strateji əsasını formalaşdıracaq.

***

Avqustun 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Naxçıvan şəhərində Möminə xatun türbəsində aparılan bərpa və konservasiya işləri ilə tanış olublar.

"Atelier Erich Pummer gmbh" şirkətinin direktoru Erix Pummer dövlətimizin başçısına və birinci xamına türbədə görülən işlər barədə məlumat verdi.

Prezident İlham Əliyevin 2023-cü ildə imzaladığı Sərəncamla təsdiqlənmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda muxtar respublikadakı tarix-memarlıq abidələrinin mövcud vəziyyətinin qiymətləndirilməsi və bərpa-konservasiya işlərinin həyata keçirilməsi nəzərdə tutulub. Möminə xatun türbəsində görülən işlər də bu proqrama uyğun icra olunur.

Yerli və xarici ekspertlər tərəfindən 2023-2025-ci illərdə aparılmış baxış və tədqiqatlar nəticəsində türbədə bərpa və konservasiya işlərinin görülməsi zəruri hesab edilib.

Dövlətimizin başçısı dünya əhəmiyyətli tarix-memarlıq abidəsi olan Möminə xatun türbəsinin bərpası və konservasiyası ilə bağlı tədbirlər haqqında 2025-ci ildə Sərəncam imzalayıb.

Azərbaycan memarlığının görkəmli abidələrindən biri olan bu türbə 1186-cı ildə memar Əcəmi Naxçıvani tərəfindən inşa edilib. Tarixi mənbələrə əsasən, türbə Atabəylər Memarlıq Kompleksinin tərkib hissəsi olub. Dövrümüzədək kompleksdən yalnız bu abidə qorunub saxlanılıb. Abidənin ümumi hündürlüyü 34 metr olub. Lakin sonralar xarici örtüyünün 8 metrlik hissəsi dağıldığından hazırda onun hündürlüyü təxminən 26 metrdir. Türbə yeraltı və yerüstü hissələrdən ibarətdir.

Abidənin memarlıq xüsusiyyətləri və əhəmiyyəti nəzərə alınaraq Avstriyanın bu sahədə çoxillik təcrübəsi olan şirkəti ilə müqavilə bağlanıb, abidənin mövcud vəziyyəti qiymətləndirilərək hərtərəfli tədqiq və ölçmə işləri aparılıb. Hazırda abidənin bərpası, damın yenidən qurulması, məqbərədə mövcud əyilmənin ölçülməsi və nəzarətdə saxlanılması, həmçinin drenaj sisteminin qurulması ilə bağlı işlər görülür.

Möminə xatun türbəsi 2001-ci ildə dünya əhəmiyyətli memarlıq abidəsi kimi dövlət mühafizəsinə götürülüb. 1998-ci ildə isə UNESCO-nun Ümumdünya İrsinin İlkin Siyahısına daxil edilib.

Qeyd edək ki, bu layihənin icrası tarixi irsimizin qorunması və təbliği baxımından çox mühüm əhəmiyyət daşıyır. Azərbaycan milli memarlığının möhtəşəm abidəsi, Şərq memarlığının isə incilərindən biri olan Möminə xatun türbəsi böyük tarix və mədəniyyət yadigarımızdır. Görkəmli Azərbaycan memarı Əcəmi Naxçıvaninin yaratdığı bu nadir və monumental sənət nümunəsi kompozisiya həlli ilə seçilir. Türbə, həmçinin Azərbaycanda həmin dövrlərdə yüksək inkişaf etmiş mədəniyyətin və dövlətçilik ənənələrinin mövcudluğunun əyani göstəricisidir.

***

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 11-də Naxçıvan şəhərindəki "Əcəmi seyrangahı" istirahət kompleksində memar Əcəmi Naxçıvaninin abidəsinin açılışında iştirak ediblər.

Abidənin müəlliflərindən biri Xalq rəssamı Salxab Məmmədov dövlətimizin başçısına və birinci xanıma abidə barədə məlumat verdi.

Qeyd edək ki, bu il Azərbaycan memarlığının görkəmli nümayəndəsi, Naxçıvan memarlıq məktəbinin banisi Əcəmi Naxçıvaninin anadan olmasının 900 illiyi tamam olur.

Prezident İlham Əliyev Əcəmi Naxçıvaninin 900 illiyinin qeyd edilməsi, həmçinin onun abidəsinin ucaldılması barədə ötən il Sərəncam imzalayıb.

Abidə kompleksi böyük Azərbaycan memarı Əcəmi Naxçıvaninin zəngin memarlıq irsini daha müasir yanaşma əsasında təqdim etmək məqsədilə yaradılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 11-də Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Azərbaycan Televiziyasına müsahibə verib.

**Jurnalist:** Xoş gördük, cənab Prezident. Əvvəlcə sıx qrafikinizə rəğmən, müsahibəyə vaxt ayırdığınız üçün təşəkkür etmək istərdim. İcazənizlə, suallara keçərdik.

**Prezident İlham Əliyev:** Buyurun.

**Jurnalist:** Bu Sizin Naxçıvana 17-ci səfərinizdir və bu səfər çərçivəsində də olduqca mühüm tədbirlərə şahidlik etdik. Ümumilikdə səfərin təfərrüatlarını, yekunlarını və nəticələrini necə qiymətləndirmək olar?

**Prezident İlham Əliyev:** Əslində, səfərim və səfər zamanı iştirak etdiyim tədbirlər özlüyündə bir göstəricidir. Bir daha göstərir ki, Naxçıvan Muxtar Respublikası hərtərəfli inkişaf edir. Qeyd etdiyiniz kimi, mən Prezident kimi 17-ci dəfədir ki, Naxçıvana səfər edirəm və hər səfərimin də böyük mənası və gözəl nəticələri vardır.

Bu illər ərzində bir çox önəmli layihələr icra olundu, Naxçıvanın ümumi inkişafı təmin edildi. Bugünkü tədbirlər də bir növ görülən işlərin davamıdır və təbii ki, bundan sonra da lazımi qərarlar veriləcək və Naxçıvanın sürətli sosial-iqtisadi inkişafı təmin ediləcək.

Bu illər ərzində, əlbəttə ki, ilk növbədə Naxçıvanın müdafiə potensialının gücləndirilməsi məsələsi prioritet məsələlər sırasında idi. Bu istiqamətdə də böyük işlər görüldü və bu gün bayrağın təqdimetmə mərasimində bir daha Naxçıvanın hərbi gücü özünü göstərdi, həm texnika ilə təchizat, - özü də ən müasir texnika ilə, - həm də yeni komando qüvvələrinin yaradılması. Bu da Azərbaycan Silahlı Qüvvələrində son vaxtlar müşahidə olunan mənzərədir.

Bildiyiniz kimi, Naxçıvanda mənim Sərəncamımla Əlahiddə Ordu yaradılmışdır. Bu ordu, təbii ki, Azərbaycan Silahlı Qüvvələrinin ayrılmaz tərkib hissəsidir. Ancaq Naxçıvanın spesifikası, coğrafiyası, Azərbaycanla, Azərbaycanın əsas hissəsi ilə coğrafi bağlantısının olmaması, əlbəttə ki, bu diyarın - muxtar respublikanın təhlükəsizliyinə daha böyük diqqət göstərməyimizə gətirib çıxardı və bu, daim belədir. Ona görə bu, birinci şərtdir. Bu gün qeyd etdiyim kimi, Azərbaycan Silahlı Qüvvələri bölgədə söz sahibidir. O cümlədən Naxçıvanda hərbi potensial gündən-günə gücləndirilir və gücləndiriləcək.

Digər tədbirlərə gəldikdə, əlbəttə ki, burada xüsusilə iş yerlərinin yaradılması ilə bağlı görülən və görüləcək işləri qeyd edə bilərəm. Bu gün Naxçıvan Sənaye Parkının təməli qoyuldu. Azərbaycanda mənim göstərişimlə bir çox sənaye parkları yaradılmışdır və onların arasında ərazi nöqteyi-nəzərindən Naxçıvan Sənaye Parkı Sumqayıt Sənaye Parkından sonra ikincidir. Dediyim kimi, təməl daşı qoyuldu və əminəm ki, tezliklə bu Sənaye Parkında artıq praktiki işlər başlanacaqdır.

Eyni zamanda, bu Parkın tərkib hissəsi olaraq 300 meqavat gücündə istilik elektrik stansiyası inşa ediləcək. Onu bildirməliyəm ki, bu gün Naxçıvanın generasiya gücü təqribən 200 meqavatdır. Təkcə bir stansiya bunu 1,5 dəfə artıracaq. Təbii ki, bu stansiyanın iki məqsədi var: birincisi, Naxçıvan Muxtar Respublikasını dayanıqlı enerji ilə təmin etmək, ikincisi, ixrac məsələləridir.

Bu gün yerləşdiyimiz regionda əgər elektrik enerjisi ilə problemi olmayan nadir ölkələr varsa, Azərbaycan onların sırasında birincidir. Çünki bu və ya digər səbəblər üzündən bölgəmizdə enerji böhranı yaşanmaqdadır və bu böhran dərinləşə bilər. Həm bölgəmizdə gedən müharibələr, həm artan risklər, enerji daşıyıcılarının nəqli ilə bağlı nəqliyyat zəncirlərinin qırılması və digər amillər. İstisna edilmir ki, gələcəkdə yeni xoşagəlməz hadisələr baş verməsin. Ona görə burada Azərbaycanın xüsusi rolu danılmazdır. Biz elə etməliyik ki, Naxçıvanın davamlı və dayanıqlı enerji təminatı heç vaxt pozulmasın.

Bu məqsədlər üçün vaxtilə yenə də mənim təşəbbüsümlə biz İran İslam Respublikası ilə qaz mübadiləsi sazişini imzaladıq. Bu sazişə əsasən, İrandan Azərbaycana qaz kəməri çəkilmişdir və eyni zamanda, Azərbaycanın Astara rayonundan İran ərazisinə qaz nəqli təmin edilmişdir. Yəni biz Naxçıvanı mübadilə yolu ilə 100 faiz qazla təmin etdik.

Bununla paralel olaraq, qazlaşmanı apardıq. Artıq neçə ildir ki, - təqribən deyə bilərəm, bəlkə 15 il, bəlkə ondan da çox, - Naxçıvanda qazlaşma 100 faizdir. Azərbaycanda ümumilikdə qazlaşmanın səviyyəsi 96 faizdir, bu da çox böyük rəqəmdir. Ancaq Naxçıvanda bu, artıq 100 faizdir. Yəni bu da enerji təhlükəsizliyinə yönəlmiş bir addım idi.

Burada bir çox su və Günəş elektrik stansiyaları, modul tipli elektrik stansiyası inşa edilmişdir. Yəni enerji təhlükəsizliyi fiziki təhlükəsizlikdən sonra ikinci vacib amildir. Bu gün dediyim kimi, həm 300 meqavat gücündə istilik elektrik stansiyasının təməli qoyuldu və 50 meqavat gücündə iki Günəş elektrik stansiyasının tikintisi ilə tanış oldum.

Naxçıvanda Günəş enerjisinin potensialı çox böyükdür. Aparılan monitorinq və dəqiq təhlil əsasında Günəş elektrik enerjisinin istehsalı üçün Azərbaycan ərazisində ən əlverişli məkan Naxçıvandır. Buna görə artıq 600 hektardan çox ərazi müəyyən edildi və orada yüzlərlə meqavat gücündə Günəş elektrik stansiyaları inşa ediləcək.

Sevindirici hal ondan ibarətdir ki, bizdə bərpaolunan enerji növlərinin yaradılması ilə bir qayda olaraq, özəl sektor məşğuldur. Mənə bu gün təqdim edilən məlumat onu göstərir ki, bu layihələr iqtisadi cəhətdən, yəni gəlirlilik nöqteyi-nəzərindən investorlar üçün cəlbedicidir.

Yəni burada həm Azərbaycanda investisiya iqliminin müsbət olması, eyni zamanda, bərpaolunan enerji növlərinin inkişafına dövlət dəstəyi və bütövlükdə bizim artan potensialımız, o cümlədən ixrac imkanlarımız mühüm rol oynayır. Çünki qeyd etdiyim kimi, bu gün Naxçıvan elektrik enerjisi ilə təminat baxımından tam sığortalıdır.

Dediyim 200 meqavat generasiya gücü Naxçıvanın bugünkü tələbatından artıqdır. Amma biz gələcəyə baxmalıyıq. Naxçıvanın sürətli inkişafı davam etdiriləcək, o cümlədən Dövlət Proqramının icrası nəticəsində. Bu Proqram da mənim Sərəncamımla qəbul edilmişdir. Naxçıvandan çox böyük həcmdə elektrik enerjisinin ixracı da nəzərdə tutulacaq.

Digər vacib sahə, - yəni o sahə də bu gün səfərimin proqramında öz əksini tapmışdır, - Naxçıvanın tarixi-mədəni abidələrinin qorunmasıdır. Bildiyiniz kimi, Naxçıvan çox zəngin tarixə və mədəniyyətə, o cümlədən memarlıq mədəniyyətinə malikdir. Naxçıvan qədim Atabəylər dövlətinin paytaxtı olub və o dövrə, ondan sonrakı dövrə aid olan bir çox abidələr dünya əhəmiyyətli abidələrdir.

Möminə xatun məqbərəsinin bərpası ilə bağlı görülən işlər bu gün mənə təqdim edildi.

# Naxçıvan, azad olunmuş ərazilər - Şərqi Zəngəzur, Qarabağ vahid konsepsiya əsasında inkişaf etməlidir

## Prezident İlham Əliyev Naxçıvanda Azərbaycan Televiziyasına müsahibə verib

Eyni zamanda, digər tarixi-mədəni obyektlərin konservasiyası, qorunması və bərpası nəzərdə tutulur. Möminə xatun məqbərəsinin müəllifi məşhur naxçıvanlı memar Əcəmi Naxçıvaninin şərəfinə abidə ucaldıldı. O abidənin arxasında onun ölməz əsəri Möminə xatun məqbərəsi yerləşir.

Bütün bu məsələlər böyük əhəmiyyət daşıyır. Çünki təbii ki, sosial-iqtisadi inkişaf, enerji təhlükəsizliyi vacib məsələlərdir. Ancaq bütün bu görülən işlərin təməlində bizim milli kimliyimiz dayanır, milli ruhumuz dayanır, mədəniyyətimiz, dilimiz, ədəbiyyatımız, tariximiz dayanır. Azərbaycan xalqı xoşbəxt xalqdır. Biz tariximizlə, mədəniyyətimizlə, görkəmli şəxsiyyətlərimizlə fəxr edə bilərik.

Naxçıvan, eyni zamanda, Azərbaycana bir çox görkəmli şəxsiyyətlər bəxş edib. Naxçıvan Azərbaycan xalqına dahi şəxsiyyət Heydər Əliyev kimi Ulu Öndər bəxş edib. Yəni bu bölgənin zəngin tarixi, bu bölgədə yaşayan insanların mərdliyi, doğma Vətənə bağlılığı və eyni zamanda, Naxçıvanın strateji yerləşməsi və imkanları, burada icra olunan və olunacaq layihələr bu gün təkcə Azərbaycan üçün deyil, - halbuki birinci növbədə Azərbaycan üçün, - geniş coğrafiya üçün böyük əhəmiyyət kəsb edir.

Məsələn, əgər biz nəqliyyat dəhlizlərindən danışırıqsa, bu gün təbii ki, Naxçıvanın timsalında yeni nəqliyyat damarlarını görürük. Biz bunu yaradırıq. Bunu yaratmaq üçün bir çox işlər görülüb və görüləcək. Ona görə bu məsələlərə daim diqqət göstərilir və göstəriləcək.

Bu gün, eyni zamanda, sosial təminatla əlaqədar DOST Mərkəzinin açılışını qeyd edə bilərəm. Onun yanında “ASAN xidmət” mərkəzi dayanır. O da vaxtilə mənim göstərişimlə yaradılmışdır ki, insanlara daha gözəl xidmət göstərilsin.

Yəni proqramın tərkib hissəsinə baxmaq kifayətdir ki, burada hər kəs görsün ki, Naxçıvanın inkişafı reallıqdır. Onu da əlavə edə bilərəm ki, bu yaxınlarda - bir neçə ay bundan əvvəl qəbul edilmiş kənd təsərrüfatının inkişafına dair Dövlət Proqramında da Naxçıvanın xüsusi yeri var, payı var, lazımi vəsait nəzərdə tutulub. O cümlədən kənd təsərrüfatının inkişafı üçün vacib olan amil - suvarma layihələri icra edilir. Bir çox artezian quyuları qazılacaq, müasir suvarma sistemləri quraşdırılacaq. Bu gün suvarılmayan torpaqlara su veriləcək. Beləliklə, muxtar respublikanın inkişafı daha sürətli və hərtərəfli olacaq.

**Jurnalist:** Cənab Prezident, budəfəki səfər həm də yeni reallıqlar şəraitində baş tutur. Bu reallıqlardan ən ümdəsi yəqin ki, Zəngəzur dəhlizi ilə bağlıdır. Hansı ki, müharibədən dərhal sonra Siz onun mütləq açılacağını bəyan etmişdiniz, kimin onu istəyib-istəməməsindən asılı olmayaraq. İndi Naxçıvanın dəmir yolunun və Zəngəzur dəhlizinin bərpası və açılması ilə bağlı işlər hansı mərhələdədir?

**Prezident İlham Əliyev:** Zəngəzur dəhlizinin yaradılması bildiyiniz kimi, bizim təşəbbüsümüz olub. Azərbaycanın əsas hissəsini onun ayrılmaz hissəsi olan Naxçıvanla birləşdirmək bizim çoxdankı arzumuz olub. Biz bu hədəfə doğru inamla və çox böyük məharətlə addımlayırdıq, yaxınlaşırdıq və artıq yaxınlaşmışıq.

Təbii ki, yadınızdadır, İkinci Qarabağ müharibəsinin başa çatması ilə əlaqədar üçtərəfli bəyanat imzalanmışdır - Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistanın Baş naziri. Əslində, bu, Ermənistan üçün kapitulyasiya aktı idi, çünki Ermənistan təslim oldu. O vaxt hələ işğal altında olan, - müharibə yolu ilə hələ biz o bölgələri azad etməmişdik, - Ağdam, Kəlbəcər və Laçın rayonları bir güllə atılmadan bizə qaytarıldı. Təbii ki, Ermənistan bunu könüllü etməmişdir, biz onu məcbur etdik. Kimisə müharibə şəraitində məcbur edirsənsə, deməli, həmin o tərəf kapitulyasiyaya uğrayır. Yəni bu termində hər hansı bir alçaldıcı, yaxud da ki, təhqiramiz bir məna axtarmaq lazım deyil. Bu, sadəcə olaraq, reallıqdır. Biz tarixi həm olduğu kimi bilməliyik, həm unutmamalıyıq və tarixin təhrifinə, o cəhdlərə heç vaxt imkan verməməliyik. O vaxt - noyabrın 9-da Şuşa işğaldan azad olunandan sonra Rusiya Prezidentinin vasitəsilə üçtərəfli danışıqlar gedirdi. Mən qəti təkid edirdim ki, imzalanacaq bəyanatda Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikasını birləşdirən dəhliz mütləq öz əksini tapmalıdır. Ermənistan tərəfi buna razılıq vermək istəmirdi. Ancaq onun o qədər də böyük alternativləri də yox idi. Müharibə davam etdirilsəydi, əlbəttə, biz də itkilər verəcəkdik, amma Ermənistan daha çox itki verəcəkdi. Çünki onların qoşunları demək olar ki, mühasirədə idi və onları məhv etmək faktiki olaraq tam mümkün idi. Ona görə bunu istəməsələr belə Ermənistan buna razılıq verdi və o bəyanat hamıya bəllidir, orada xüsusi bir bənd var.

Ancaq İkinci Qarabağ müharibəsindən keçən 5 il ərzində Zəngəzur dəhlizinin açılması ilə bağlı heç bir praktiki addım atılmamışdır. Dəfələrlə biz bu məsələni həm Rusiyaya, həm Ermənistana çatdırırdıq ki, vaxt gedir, bu bəyanat, onun vacib hissəsi icra edilmir və bu, dözülməz haldır. Müxtəlif vaxtlarda müxtəlif cavablar alırdıq, bu barədə çox danışmaq istəmirəm. Fakt odur ki, Ermənistan bunu hər cür uzatmağa çalışırdı. Rusiya tərəfi isə ya bunu təmin edə bilmirdi, ya da ki, hansısa başqa səbəblər var idi. Yəni fakt o idi ki, keçən ilin avqust ayına qədər məsələ dondurulmuş vəziyyətdə idi.

Amerika Birləşmiş Ştatlarında bu məsələyə yaxınlaşmağa başlayanda, - təqribən keçən ilin yaz aylarından, yazın əvvəlində başlanmış təmaslar nəticəsində artıq bu prosesə start verilmişdir, - təbii ki, Ermənistan-Azərbaycan normallaşma prosesinə öz töhfələrini verməyə çalışırdılar, buna hazır olduqlarını bildirirdilər. Təbii ki, bizim bir neçə önəmli şərtimiz var idi, o cümlədən Zəngəzur dəhlizi.

Nəticə etibarilə 2025-ci il avqustun 8-də tarixi Vaşinqton Zirvə Görüşündə bu məsələ öz həllini tapdı. TRIPP adını daşıyan bu layihənin icrasına artıq start verilmişdir. Bu yaxınlarda, üç gün bundan qabaq - avqustun 8-də Prezident Trampla söhbət əsnasında bu məsələyə də toxunuldu və hər iki tərəf əminliyini vurğuladı ki, bu önəmli nəqliyyat layihəsi mütləq və tezliklə icra ediləcək. Yəni bu, məsələnin tarixçəsidir.

Eyni zamanda, İkinci Qarabağ müharibəsi başa çatar-çatmaz biz dərhal həm dəmir yollarının, həm də avtomobil yollarının bərpasına başladıq, o cümlədən Naxçıvana doğru gedən yolların tikintisinə. Bu gün Horadiz-Ağbənd avtomobil yolu demək olar ki, hazırdır. Bir sıra xırda məsələlər qalıb. Dəmir yolunun tikintisi də sürətlə gedir. Biz bu layihəni hər an sürətləndirə bilərik. Sadəcə olaraq, Ermənistan hissəsi hazır olmadığı üçün buna lüzum görmürük. Çünki investisiyaları, sərmayələri daha vacib və təcili məsələlərin həllinə yönəltmək üçün.



Ancaq istənilən halda gələn il dəmir yolu da Ermənistan sərhədinə gəlib çatacaq. O ki qaldı, Naxçıvan dəmir yolunun tikintisinə, hazırda işlər gedir. Mənim göstərişimlə Nəqliyyat Nazirliyi bu işlə məşğuldur. Azərbaycan Dəmir Yolları Ordubad istiqamətində inşa işlərinə başlamışdır və olmayan hissələr yenidən tikiləcək. İki hissə mövcud deyildi, hər ikisi də Ermənistan sərhədinə yaxındır - biri Ordubad, ikincisi isə Sədərək rayonlarının ərazisindədir. Hər iki hissənin uzunluğu o qədər də böyük deyil, təqribən 3-5-7 kilometrdir. Qalan dəmir yolu isə prinsipcə işlək vəziyyətdədir və bu gün də ondan istifadə edilir və edilə bilər. Sadəcə olaraq, bu gün mövcud olan dəmir yolunun yükaşırma qabiliyyəti 1,5 milyon tondur. İlkin mərhələ üçün Zəngəzur dəhlizinin və ümumiyyətlə, Şərq-Qərb dəhlizinin bir qolu olan bu yolun fəaliyyətə başlaması kifayətdir. Amma bizim istəyimiz ondan ibarətdir ki, bu nəqliyyat dəhlizindən ən azı 15 milyon ton yük keçsin. Onun üçün bu gün mövcud olan dəmir yolu yenidən qurulmalıdır, reabilitasiya edilməlidir. Bu gün mənə verilən məlumat və təqdimat çox vacib idi. Mənim də göstərişlərim ondan ibarət idi ki, vaxt itirmək lazım deyil, Azərbaycan öz vəsaiti hesabına bu dəmir yolunu tam işlək və 15 milyon ton yükaşırma qabiliyyətinə malik olan vəziyyətə çatdıra bilər və çatdırmalıdır.

Onu da bildirməliyəm ki, bir çox beynəlxalq qurum, bəzi ölkələr bu yola maraq göstərir, xüsusilə Azərbaycan dəmir yollarının Naxçıvan seqmentinə. Onlardan biri Avropa İttifaqıdır. Avropa İttifaqının nümayəndələri Naxçıvana ezam edilmişdir. Burada yerlərdə vəziyyətlə tanış olmuşlar və onlar da bu dəhlizin iştirakçıları olmaq istəyirlər.

Biz prinsip etibarilə buna etiraz etmirik. Bizim mövqeyimiz ondan ibarətdir ki, Azərbaycanın əsas hissəsində yerləşən ərazilərdə Azərbaycan Dəmir Yolları artıq bütün işləri yekunlaşdırır və burada hər hansı bir xarici iştiraka ehtiyac yoxdur. O ki qaldı, Naxçıvan dəmir yolunun reabilitasiyasına, burada prinsip etibarilə beynəlxalq konsorsium yaradıla bilər. Təbii ki, nəzarət paketi Azərbaycan dövlətinə məxsus olmaq şərti ilə beynəlxalq konsorsium investorlardan ibarət ola bilər və biz buna açığıq. Olmasa da, biz özümüz bu yolu çəkəcəyik. Bizim indi hansısa maliyyə problemlərimiz yoxdur. Olsaydı belə bu önəmli layihəyə hər zaman biz vəsait tapardıq. Amma biz hesab edirik ki, bu yolu beynəlxalq aktorlar və potensial yükgöndərənlər üçün daha cəlbedici etmək məqsədilə Naxçıvan dəmir yolu layihəsi məhz dediyim kimi, bir neçə şirkətdən ibarət konsorsium tərəfindən inşa edilə bilər.

Bu məsələ ilə bağlı bir neçə ölkədən bizə müəyyən mesajlar daxil olub. Hələ ki, bu barədə danışmaq istəmirəm. Sadəcə olaraq, konseptual nöqteyi-nəzərindən bu mümkündür. Ancaq onu da mən bu gün nəqliyyat nazirinə və Dəmir Yolu İdarəsinin rəisinə dedim, biz əlbəttə ki, buna açığıq, amma vaxt itirmək istəmirik. Çünki cənab Prezident Trampla son söhbət zamanı aydın oldu ki, Ermənistan ərazisində dəmir yolunun tikintisi bu il başlanmalıdır, orada cəmi 42 kilometr yoldur.

Naxçıvan ərazisində isə yeni texniki-iqtisadi əsaslandırma əsasında, - çünki tamamilə yeni texniki-iqtisadi əsaslandırma işlənilib, - yolun uzunluğu 194 kilometr olacaq. Əvvəllər daha qısa idi. Nə üçün daha uzundur? Çünki əvvəllər döngələr daha qısa idi və o xətti biz əsas götürsək, əgər tam necə var idi elə bərpa etsək, bu, 15 milyon ton yükü qaldıra bilməz. Ona görə yol daha uzun olacaq - 194 kilometr. Biz vaxt itirə bilmərik. Bizim vəsaitimiz də var bu il və gələn il. Ona görə yəqin ki, mənim sözlərim müxtəlif ünvanlara da çatacaq. Əgər kimsə bu layihədə iştirak etmək istəyirsə, vaxt itirməsin və tezliklə bizimlə artıq razılaşmaya gəlsin. Çünki bəzi bürokratik əngəllər, məsələlərin uzadılması, yəni bu bizim, Azərbaycanın üsuli-idarəsi deyil. Biz məsələləri müəyyənləşdiririk, qərar qəbul edirik, dərhal bunun icrasına başlayırıq.

Bu yolun əhəmiyyəti dediyim kimi, təkcə Azərbaycan üçün yox, geniş coğrafiya üçün olacaq. Çünki qeyd etdiyim kimi, bu, Şərq-Qərb nəqliyyat dəhlizinin bir qolu olacaq. Eyni zamanda, Şimal-Cənub nəqliyyat dəhlizinin bir qolu olacaq. Çünki bu gün Şimal-Cənub nəqliyyat dəhlizi deyəndə adətən Rusiya-Azərbaycan-İran, yəni Astaraya keçid, Astara-Rəşt İran ərazisində layihə nəzərdə tutulur. Layihənin icrası bildiyimə görə, ya başlayıb, ya da ki, başlayacaq. Hər halda Azərbaycan ərazisində bu layihə hazırdır. Amma Zəngəzur dəhlizi açılandan sonra artıq Azərbaycandan İrana ikinci dəmir yolu xətti açılacaqdır. Məhz Zəngəzur dəhlizindən Naxçıvana girərək və Culfa dəmiryol məntəqəsindən İrana dəmir yolu var. Yəni bu layihə daha tez reallaşa bilər. Şimal-Cənub nəqliyyat dəhlizi Fars körfəzinə istiqamətləndirilir. Oradan o bölgəyə yaxın olan, məsələn, Pakistana uzana bilər. Yəni bu, çox önəmli bir nəqliyyat layihəsi olacaqdır və bunun mərkəzində Naxçıvan dayanır.

Ona görə bu gün strateji nöqteyi-nəzərindən, bundan əvvəl dediyim amillərlə yanaşı, bu amil də çox önəmli rol oynayır. Əlbəttə ki, buradan keçən tutaq ki, 15 milyon ton, bəlkə daha çox yük daha böyük canlanmaya gətirib çıxaracaq. Daha çox iş yerləri açılacaq, iqtisadi fəallıq artacaq və Naxçıvan deyə bilərəm ki, əvəzolunmaz nəqliyyat mərkəzlərinin birinə çevriləcəkdir. Bu, tam mümkündür.

Hamımız yaxşı bilirik, dəfələrlə bu barədə danışmışıq, ölkəmizin açıq dənizlərə çıxışı yoxdur, okeanlara çıxışı yoxdur. Amma bu gün Avrasiya nəqliyyat dəhlizlərinin icrası məsələləri müzakirə olunanda bizi “bypass” etmək, bizdən yan keçmək mümkün deyil. Bax, Naxçıvanın da eyni gələcəyi olacaqdır və əlbəttə ki, bu bizə həm iqtisadi, həm başqa dividendlər gətirəcək.

**Jurnalist:** Cənab Prezident, bu məsələyə artıq qismən toxundunuz. Naxçıvanın enerji təminatı və enerji təhlükəsizliyi ilə bağlı ardıcıl tədbirlər həyata keçirilir. Ötən il İğdır-Naxçıvan qaz boru xəttinin istismara verilməsi, həmçinin Naxçıvanın yaşıl enerji potensialının reallaşdırılması istiqamətində addımları xüsusilə qeyd edə bilərik. Ümumilikdə cari vəziyyəti və perspektivləri necə qiymətləndirmək olar? Biz Naxçıvanda da xarici investisiyaları görə bilərikmi? Bu istiqamətdə.

**Prezident İlham Əliyev:** Bəli, mütləq, mütləq, bu olacaq. Artıq bizə bir çox yerlərdən belə təkliflər daxil olur. Həm Azərbaycanın əsas hissəsində, həm Xəzər dənizində, eyni zamanda, bildiyiniz kimi, işğaldan azad edilmiş ərazilərdə artıq konkret layihələrə start verildi. Bəziləri artıq istismara da verilmişdir, bəziləri icra edilir. O cümlədən Naxçıvan Muxtar Respublikasının Günəş potensialını və xüsusilə su potensialını nəzərə alaraq burada daha böyük işlər də görüləcəkdir. Misal üçün, gündəlikdə olan məsələlərdən biri Ordubad rayonunun Tivi kəndindəki 15 meqavatdan bir qədər çox gücdə su elektrik stansiyasının layihəsidir. Bu stansiyanın davam etdirilməsi üçün də biz vəsait ayıracağıq. Yerli investorlar qeyd etdiyim kimi, 50 meqavatlıq Günəş elektrik stansiyaları inşa edirlər. Xarici investorlar da maraq göstərirlər.

Mən hesab edirəm ki, təkcə Günəş elektrik enerjisinin istehsalı Naxçıvanda təqribən ən azı 500 meqavat ola bilər, ən azı. Ola bilər 1000 meqavat da olsun. Burada əsas məsələ bunun ixrac imkanlarıdır. Bunun üçün, əlbəttə ki, aidiyyəti ölkələrin qurumları ilə danışıqlar aparılmalıdır və aparılır. Eyni zamanda, ötürücü xətlərin imkanlarını genişləndirməliyik. Çünki təbii ki, bu gün həm İrana, həm Türkiyəyə Naxçıvandan da elektrik xətləri var, ancaq onların imkanı bir qədər məhduddur. Yəni 500 meqavat, hətta 1000 meqavat elektrik enerjisini ixrac etmək üçün burada təbii ki, hələlik iki istiqamət var: biri Türkiyə, biri İran. Amma gələcəkdə bu, Avropa da ola bilər.

Ona görə Zəngəzur dəhlizini konkret layihələrlə təmin etməyimiz daha geniş məna daşıyır. Təbii ki, Zəngəzur dəhlizini - bu ideyanı və bu təşəbbüsü biz irəli sürəndə, ilk növbədə nəqliyyat seqmenti nəzərdə tutulurdu. Amma biz bu gün buna daha geniş baxırıq. Misal üçün, Azərbaycanın əsas hissəsindən Naxçıvana Ermənistan ərazisindən elektrik xətlərinin çəkilməsi layihəsi bizdə hazırdır. İşğaldan azad edilmiş Cəbrayıl rayonunda çox böyük yarımstansiya inşa olunmuşdur. O yarımstansiyanın əsas funksiyası ötürücü fəaliyyətdir. Yəni belə yarımstansiyalara çevirici yarımstansiyalar deyirlər. Bu, daxili təminat üçün yox, yəni böyük enerji həcmlərinin ötürülməsi üçün tikilib. O hazırdır. O, məhz Zəngəzur elektrik dəhlizi üçün tikilmişdir.

Ermənistan ərazisində bizim mütəxəssislər tərəfindən aparılan təhlil nəticəsində hətta yerlər də müəyyən edildi - harada elektrik dirəkləri quraşdırılmalıdır. Ümid edirəm ki, Ermənistan tərəfi də bu məsələni uzatmayacaq. Çünki bu, birinci onların özlərinə lazım ola bilər. Çünki onların bu gün əsas enerji mənbəyi atom elektrik stansiyasıdır. Onun da idarəetməsi onların əlində deyil. Bu birincisi. İkincisi, bu stansiya köhnəlib və bütün bölgə üçün təhlükə mənbəyidir. Dəfələrlə Azərbaycan və Türkiyə müxtəlif beynəlxalq platformalarda bu məsələ ilə bağlı öz narahatlıqlarını ifadə ediblər. O stansiyanın ömrünün uzadılması sonsuz proses ola bilməz, gec-tez bağlanmalıdır. Təbii ki, o bağlanarsa, Ermənistan tamamilə enerji böhranına yuvarlanacaq. Ona görə, necə deyərlər, bir əlavə mənbənin olması ancaq xeyir gətirə bilər.

Məsələn, bu gün bizim enerji xətlərimiz Rusiya ilə, İranla, Gürcüstanla, Gürcüstan vasitəsilə Türkiyə ilə birləşdirilib. Ona görə Ermənistan ərazisindən Naxçıvana, ondan sonra Türkiyəyə və Avropaya uzanacaq enerji dəhlizi, eyni zamanda, Ermənistanın enerjisisteminin ayaqda qalmasına, - əgər böhran yaranarsa, - imkan yaradacaq. Ona görə biz bunu nə qədər tez icra etsək, o qədər yaxşıdır. Təbii ki, indi siz də yaxşı bilirsiniz, biz bu son beş ildə Kəlbəcər dağlarında, 3500 metr yüksəkliklərdə qarın içində dirəklər quraşdırmışıq. Yəni əgər biz bu layihəni icra etməli olsaq, bu, maksimum 6 ay çəkər.

Amma Ermənistan təbii ki, özü bunu etməlidir. Ona görə hesab edirəm ki, bu məsələyə tezliklə aydınlıq gətirilməlidir. Bu, Zəngəzur dəhlizinin, TRIPP-in ayrılmaz hissəsi olacaq. Çünki bu layihə təkcə dəmir yolu, avtomobil yolu deyil. Hətta buradan fiber-optik kabel, ondan sonra elektrik xətləri, gələcəkdə əgər ehtiyac olarsa, neft-qaz kəmərləri də keçə bilər.

Çünki nə qədər çox alternativlər olsa, hamı üçün o qədər də yaxşıdır. Ona görə Naxçıvanın enerji təhlükəsizliyi ilə əlaqədar suala cavab verərək, həm də əvvəl dediyim sözlərə qayıtmaq istəyirəm ki, burada tam dayanıqlı və sığortalı enerji sistemi yaradılır, faktiki olaraq yaradılıb, amma biz bunu daha da təkmilləşdiririk. Biz, əlbəttə ki, ixrac imkanlarını, o cümlədən Naxçıvan ərazisindən genişləndirməliyik.

Yenə də deyirəm, yerləşdiyimiz bölgədə bizdən başqa bu qədər enerji ilə, istər neft-qaz, istər elektrik enerjisi ilə təmin olunan ikinci ölkə yoxdur. Qonşu ölkələrə ixrac imkanlarımızı genişləndirərək biz, eyni zamanda, Avropa bazarına da çıxacağıq. Çünki biz indi Avropaya neftimizlə, qazımızla çıxmışıq. Ancaq biz elektrik enerjisi ilə də çıxmaq istəyirik.

Bu gün yeganə marşrut Gürcüstan, Türkiyə, ondan sonra Avropa marşrutudur. Bunu biz genişləndirməliyik. O cümlədən Qara dəniz enerji kabelinin layihəsinin texniki-iqtisadi əsaslandırılması hazırdır. Amma ikinci xətt olsa, bu ancaq bizim gücümüzü artıracaq. Özü də yəqin ki, siz də xatırlayırsınız, hələ 2024-cü ilin noyabrında COP29 zamanı Qazaxıstan, Özbəkistan prezidentləri və mən Xəzərin dibi ilə elektrik kabelinin çəkilişini razılaşdırdıq, saziş imzaladıq. Yəni ona da biz hazır olmalıyıq.

Azərbaycan həm elektrik enerjisini istehsal edən, qəbul edən, ötürən və ixrac edən ölkə kimi özünü göstərəcək. Yəni bizim strateji baxışlarımız və planlarımız bundan ibarətdir. Yenə də deyirəm, bu planlar bizim bütün həndəvərimizdə yerləşən ölkələrin maraqlarına cavab verir. Sadəcə olaraq, burada koordinasiya işləri düzgün səviyyədə, lazımi səviyyədə aparılmalıdır və danışıqlar sürətləndirilməlidir. Deyə bilərəm ki, bu gün həm Türkiyə ilə, həm İranla bu barədə danışıqlar aparılır. Hələ ki, bir şey demək tezdir. O ki qaldı, Ermənistana, yenə də demək istəyirəm, Ermənistan ərazisində enerji dəhlizi nə qədər tez yaranarsa, o qədər də TRIPP üçün və bütün bölgə üçün yaxşı olar.

**Jurnalist:** Cənab Prezident, ayrı-ayrı istiqamətlər üzrə görülən və görüləcək işlərə toxundunuz. Ümumilikdə bilmək istərdik, Naxçıvanın inkişafı ilə bağlı, - yəqin ki, bu sualın cavabını Naxçıvanda da böyük maraqla gözləyirlər, - yanaşma, strateji baxış və planlar nədən ibarətdir?

**Prezident İlham Əliyev:** Qeyd etdiyim kimi, vacib olan məsələlər təhlükəsizlik məsələləri idi, bu həll olundu. Enerji təhlükəsizliyi idi, Naxçıvan Muxtar Respublikası üçün bu, həll olundu. İndi söhbət gedir ki, artıq Naxçıvan enerjinin ixracı ilə məşğul olacaq.

İşsizliklə bağlı görülən tədbirlər. Xüsusilə qeyd etdiyim kimi, Naxçıvan Sənaye Parkının yaradılması buna böyük təkan verəcək. Naxçıvanda müasir sənaye komplekslərinin yaradılması nəzərdə tutulur. Sosial infrastrukturun yaradılması, bərpası nəzərdə tutulur. Mənə verilən məlumata görə, uşaq bağçalarının tikintisinə, təmirinə ehtiyac var, bunu biz edəcəyik.

Naxçıvan şəhərinin nəqliyyat problemləri həll olundu. Bu gün yeni elektrik avtobuslarının təqdimatı oldu və artıq onlar, yəqin ki, sabahdan xəttə buraxılacaq. Köhnə avtobuslar tamamilə sıradan çıxarılıb və bu yaşıl rəngli avtobusları biz Bakı küçələrində də tez-tez görürük. Daha çox görəcəyik, çünki onların faiz nisbəti dizel avtobuslarla müqayisədə daha da artır. Naxçıvan şəhəri üçün bu məsələ həll olundu.

Bilirəm ki, şəhərlərarası, rayonlararası nəqliyyatda problem var. Göstəriş verildi ki, 217 müasir rayonlararası avtobus alınsın, bu il və gələn il marşruta buraxılsın.

Naxçıvan Muxtar Respublikasının yol infrastrukturuna da vaxtilə böyük vəsait qoyulmuşdur. Yolları siz də gördünüz, yaxşı vəziyyətdədir. Amma kənd yolları var, yenə də hələ nasaz vəziyyətdə yollar var və hesablamalar aparılıb, təqribən 420 kilometr uzunluğunda müxtəlif kateqoriyalı yolların həm çəkilişi, həm əsaslı təmiri nəzərdə tutulur. Bu 26 yaşayış məntəqəsindəki əhalinin sayı təxminən 160 min nəfərdir. Bu məsələ öz həllini tapacaq.

Ordubad rayonunda su elektrik stansiyasının tikintisi nəzərdə tutulur. Bildiyiniz kimi, bu yaxınlarda bütövlükdə Naxçıvanın inkişafına dair Dövlət Proqramı qəbul edilmişdir, ondan sonra suvarma ilə bağlı tədbirlər planı tərtib olunmuşdur. Mən buraya böyük heyət ezam etdim, bütün məsələlər təhlil olundu və işlərə başlanıldı.

Bu ilin may ayında kənd təsərrüfatının inkişafı ilə bağlı qəbul edilmiş Dövlət Proqramında Naxçıvana aid xüsusi bir hissə var və bu göstərişlər verildi. Yəni bununla yanaşı, əlavə tədbirlərin görülməsi üçün sabah mənim tərəfimdən növbəti Sərəncam imzalanacaq. Bu, çox böyük maliyyə tutumlu Sərəncam olacaq, orada konkret layihələr göstəriləcək. Əlbəttə, lazımi nəzarət də təmin ediləcək ki, burada işlər daha da sürətlə getsin.

Bütövlükdə bunu mən artıq həm bəyan etmişdim və həm də biz bunu artıq strukturlaşdırdıq ki, Naxçıvan, azad olunmuş ərazilər - Şərqi Zəngəzur, Qarabağ vahid konsepsiya əsasında inkişaf etməlidir. Məsələn, azad edilmiş bütün ərazilərdə şəhərlərin Baş planları təsdiqləndi. Mən göstəriş verdim ki, Naxçıvan şəhərinin də Baş planı işlənilsin, hazırlansın, - bu gün mənə təqdim edilmişdir, - şəhərin inkişafı, müasir infrastrukturun yaradılması ilə bağlı əlavə tədbirlər görülsün.

Naxçıvanın turizm potensialı çox zəngindir: həm tarixi abidələri, həm gözəl təbiəti, təmiz havası və mənzərəli yerləri var. Ancaq əfsuslar olsun ki, mehmanxanaların az olması və o qədər də səviyyəli olmaması turizmin inkişafını əngəlləyir. Bu gün şəhərin mərkəzində beşulduzlu yeni mehmanxananın təməli qoyuldu və yəqin ki, təqribən 2028-ci ildə hazır olacaq.

Yəni dövlət tərəfindən Naxçıvan Muxtar Respublikasının inkişafına nə lazımdırsa, o da bu günə qədər edilib və ediləcək. Naxçıvanda son 20 il ərzində bütün tikintilər dövlət büdcəsindən maliyyələşdirilib. Hər il Azərbaycan dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının dövlət büdcəsinə yüz milyonlarla manat vəsait ayrılır. Yəni bu olmasaydı, təbii ki, biz bugünkü inkişaf edən və abad Naxçıvanı da görə bilməzdik.

Ancaq biz hər zaman daha yaxşısını arzulayırıq, daha yaxşısını istəyirik. Nəzərə alsaq ki, Qarabağ, Şərqi Zəngəzur demək olar ki, sıfırdan qurulur və Zəngilan rayonu ilə Ordubad rayonu arasında məsafə cəmi 42 kilometrdir. Bu, faktiki olaraq vahid bir məkandır, tarixən də belə olub. Zəngəzur, Naxçıvan, Qarabağ vahid məkan olub və insanların da miqrasiyası əsrlər boyu olub. Ona görə bu böyük coğrafiyada qohum-əqrəbalar da çoxdur. Ona görə biz bunu vahid, nümunəvi bir inkişaf diyarı kimi nəzərdə tuturuq.

Qarabağ və Şərqi Zəngəzur yaşıl enerji zonası elan edilib, Naxçıvan da yaşıl enerji zonasıdır. Bu gün burada istehsal olunan enerjinin əksəriyyəti bərpaolunan enerji hesabınadır. Biz artıq 250 meqavatlıq iki batareya saxlanc qurğusunu yaratmışıq. Mən göstəriş verdim ki, Naxçıvanda da birinci mərhələdə ən azı 100 meqavatlıq batareya saxlanc qurğusu qurulsun. Çünki burada da bərpaolunan enerji - Günəş və su elektrik stansiyaları işləyir. Ona görə bu enerjiləri yığmaq üçün gərək bu müasir texnologiyalardan istifadə edək.

Bütün bu işlər artıq sistemli şəkildə davam edir. Əgər biz ölkəmizin coğrafi yerləşməsini götürsək görərik ki, hər bir bölgə üçün xüsusi bir inkişaf planı var. Hər bir iqtisadi bölgəmiz uğurla inkişaf edir və bu, ölkəmizin ümumi inkişafını təmin edir.

Ona görə planlar böyükdür və bu planların icrası ilə bağlı məndə heç bir şübhə yoxdur. Çünki güclü iradə var, maliyyə resurslarımız da var, heç kimdən də asılı deyilik. Naxçıvanda Qarabağ və Şərqi Zəngəzurdakı kimi idarəetmə üsuli-idarəsini yaratmaqla faktiki olaraq biz bu üç bölgəni inzibati nöqteyi-nəzərindən də birləşdiririk. Təbii ki, Naxçıvan Muxtar Respublikasının muxtar respublika statusu qalmaq şərti ilə, ancaq idarəetmə qaydaları təkmilləşməlidir.

Biz Qarabağda və Şərqi Zəngəzurda yeni idarəetmə sisteminin üstünlüklərini gördük. Əminəm ki, artıq orada yaşayan 90 mindən çox insan da bunu görür. Eyni idarəetmə - Prezidentin xüsusi nümayəndəliyi Naxçıvanda da tətbiq olundu. Beləliklə, kadr islahatları ilə paralel olaraq, bu struktur islahatları da, əlbəttə, əsas hədəfə istiqamətlənmiş bir yanaşmadır ki, bu bölgə, bu qədim diyar daim inkişaf etsin, insanlar burada rahat, təhlükəsizlik şəraitində yaşasınlar, firavan yaşasınlar.

**Jurnalist:** Vaxt ayırdığınız üçün çox minnətdaram.

**Prezident İlham Əliyev:** Sağ olun.



# Vaşinqtondan başlayan yeni sülh dövrü...

## Cənubi Qafqazın gələcəyi əməkdaşlıq və rifah üzərində qurulur

### Bakının sülh təşəbbüsü qlobal təhlükəsizliyə və iqtisadi maraqlara hədəflənib

Ötən il, avqustun 8-də Vaşinqtonda Azərbaycan, ABŞ və Ermənistan liderlərinin iştirakı ilə keçirilən üçtərəfli sammit Cənubi Qafqazın siyasi tarixində yeni səhifənin başlanğıcını qoydu. Bu görüş regionda uzunmüddətli sülh, təhlükəsizlik və əməkdaşlıq mühitinin formalaşdırılması baxımından mühüm




tarixi hadisəyə çevrildi. Sammit çərçivəsində sülh sazişinin paraflanması, ATƏT-in Minsk prosesinin və əlaqədar strukturlarının bağlanmasına dair razılaşmanın əldə olunması, eləcə də Zəngəzur dəhlizinin (TRIPP) açılması istiqamətində razılaşmalar Cənubi Qafqazda yeni geosiyasi reallıqların hüquqi və siyasi əsaslarını daha da möhkəmləndirdi.

Vaşinqton görüşündən ötən bir il ərzində baş verən proseslər Azərbaycanın irəli sürdüyü sülh gündəliyinin təkcə cari siyasi vəziyyətə hesablanmış təşəbbüs olmadığını, regionun gələcəyi üçün strateji yol xəritəsi xarakteri daşıdığını göstərdi. Azərbaycanın 44 günlük Vətən müharibəsindən sonra dayanıqlı sülhə, qarşılıqlı etimada və regional əməkdaşlığa üstünlük verməsi artıq Cənubi Qafqazın gələcəyinə dair beynəlxalq təsəvvürlərin də əsas istiqamətlərindən birinə çevrilir.

Yeni dövrdə əsas vəzifə əldə olunmuş razılaşmaları davamlı sülhə çevirmək, normallaşma prosesini tamamlamaq, kommunikasiyaları açmaq və region dövlətləri arasında iqtisadi əlaqələri genişləndirməkdir. Zəngəzur dəhlizinin (TRIPP) reallaşması isə yalnız nəqliyyat layihəsi deyil, Cənubi Qafqazı daha geniş regional və qlobal bağlantılar sisteminə inteqrasiya edəcək mühüm geoiqtisadi layihədir. Qarşıdakı mərhələ Azərbaycanın yaratdığı yeni reallıqları möhkəmləndirmək və Cənubi Qafqazı münaqişələr məkanı deyil, sülh, əməkdaşlıq və rifah regionuna çevirmək mərhələsidir.

**Vaşinqton sammiti Cənubi Qafqazda yeni geosiyasi reallıqların əsasını qoydu...**

Yeri gəlmişkən, Amerika Birləşmiş Ştatları, Ermənistan və Azərbaycan Ağ Evdə təşkil olunmuş Sülh Sammitinin birinci ildönümü ilə bağlı Birgə Bəyanat yayıb. Bəyanatda bildirilir ki, bir il əvvəl Prezident Tramp Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanla birlikdə Ağ Evdə tarixi Sammitə ev sahibliyi edib və Prezident İlham Əliyev və Baş nazir Nikol Paşinyan sülh üçün Birgə Bəyannamə imzalayıblar. Üç liderin şahidliyində Ermənistan və Azərbaycanın xarici işlər nazirləri tərəfindən "Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında Sülhün və Dövlətlərarası Münasibətlərin Təsis Edilməsi haqqında Saziş" layihəsi paraflanıb: "Bu birinci ildönümdə ölkələrimizin birlikdə əldə etdiyi nailiyyətlərə görə dərin qürur hissi keçirir və onilliklər boyu davam etmiş münaqişəyə son qoyan, Cənubi Qafqazı daha firavan gələcəyə doğru aparan bu təməl üzərində irəliləmək əzmindəyik. Sülhün təmin olunması istiqamətində bu tarixi və mühüm səylərə verilən yüksək qiymətin ifadəsi olaraq, Prezident Əliyev və Baş nazir Paşinyan birlikdə Prezident Trampın Nobel Sülh Mükafatına namizədliyini irəli sürüblər".

Qeyd olunur ki, Birgə Bəyannamə ABŞ-ın dəstəyi ilə Ermənistan və Azərbaycan üçün sülhün möhkəmləndirilməsi, rifahın təmin edilməsi və tərəfdaşlığın dərinləşdirilməsi istiqamətində konkret yol xəritəsi müəyyən edib. Cəsarətli liderlərin bir araya gəlməsindən ötən bir il ərzində bu ölkələr davamlı uğurların təmin edilməsi üçün təməl işlər görüblər: "Ermənistan və Azərbaycan Ermənistan-Azərbaycan sərhədi boyunca sabitliyi qoruyub saxlayıb və hər iki tərəf münasibətlərin normallaşdırılması, sərhədlərin delimitasiyası və davamlı sabitliyin təmin edilməsi üçün zəruri tədbirlər vasitəsilə etimadın gücləndirilməsi istiqamətində konkret addımlar atmaqdadırlar".

Bəyanatda o da vurğulanır ki, multimodal tranzit marşrutu olacaq Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu (TRIPP), infrastrukturun inkişafına rəhbərlik edəcək TRIPP İnkişaf Şirkətinin yaradılmasına dair ABŞ-Ermənistan razılaşması da daxil olmaqla, konkret irəliləyişlər sayəsində ideyadan reallığa çevrilməkdədir. "Ermənistanda mühəndis-tədqiqat işləri artıq həyata keçirilməkdədir. Azərbaycan öz ərazisində Ermənistanda TRIPP-ə birləşəcək avtomobil yolu və dəmir yolunun tikintisini demək olar ki, başa çatdırıb. Üç ölkə, həmçinin TRIPP marşrutu boyunca elektrik enerjisinin ötürülməsi xəttinin inşasını dəstəkləyir. ABŞ Cənubi Qafqaz və Mərkəzi Asiyada Trans-Xəzər Ticarət Marşrutuna (Orta Dəhliz) özəl sektor investisiyalarının cəlb edilməsinə dəstək göstərmək məqsədilə Trans-Xəzər Sahibkarlıq Fonduna 201 milyon ABŞ dolları məbləğində vəsait ayırıb. ABŞ həm Ermənistan, həm də Azərbaycanla yeni ikitərəfli strateji tərəfdaşlıqları müəyyən edən xartiyalar, habelə enerji təhlükəsizliyi, sərhəd infrastrukturu və təhlükəsizliyi, süni intellekt və yarımkeçiricilər sahəsində innovasiyalar və mühüm mineral ehtiyatlar üzrə anlaşma memorandumları imzalamaqla, əlaqələrini daha da dərinləşdirib. Bunlar hər üç ölkənin uzunmüddətli rifahına yönəlmiş sərmayələr olmaqla, artıq konkret nəticələr verib. Ağ Evdə təşkil olunmuş Sülh Sammitinin ruhuna uyğun olaraq, Azərbaycan Ermənistana münasibətdə bütün tranzit məhdudiyyətlərini birtərəfli qaydada aradan qaldırıb. Bir il ərzində Azərbaycan ərazisi vasitəsilə Ermənistana və Ermənistandan təqribən 60 min ton yük daşınıb. Azərbaycan, həmçinin Ermənistan 20 min ton neft məhsulu ilə tədarük edib. İki ölkə ikitərəfli ticarətin həcminin artırılması istiqamətində fəaliyyətlərini davam etdirir". Sənəddə o da bildirilir ki, iki ölkənin telekommunikasiya operatorları regional bağlantı marşrutlarının şaxələndirilməsi, Cənubi Qafqazda etibarlılıq və dayanıqlılığın artırılması və Avrasiya telekommunikasiya şəbəkələrində infrastrukturun inkişafına dəstək verəcək internet sazişi imzalayıb. Həll olunmamış münaqişə dövrünün başa çatdığının təsdiqi olaraq, ATƏT-in Minsk qrupu və əlaqəli strukturlar Ermənistan və Azərbaycanın birgə müraciəti əsasında ləğv edilib. ABŞ-ın dəvəti ilə Ermənistan və Azərbaycan Sülh Şurasına qoşulub, bununla da, daha dinc və firavan dünyanın yaradılması istiqamətindəki səylərdə ABŞ ilə çiyin-çiyinə olduqlarını nümayiş etdirib: "ABŞ, Ermənistan və Azərbaycan Ermənistanın və Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində suverenliyinə, ərazi bütövlüyünə və yurisdiksiyasına sarsılmaz dəstəklərini bir daha təsdiq edir. Hər üç dövlət 8 Avqust Birgə Bəyannaməsinin mətninə və ruhuna uyğun olaraq, onun tam şəkildə həyata keçirilməsinə, habelə regionun fövqəladə iqtisadi potensialının üzə çıxarılmasına sadiq qalır. Bundan əlavə, ABŞ Ermənistan və Azərbaycanla imzalanmış ikitərəfli xartiyaların və anlaşma memorandumlarının tam şəkildə həyata keçirilməsinə və hər iki ölkə ilə ikitərəfli münasibətlərinin gücləndirilməsinə sadiqdir.

Həqiqi sülh bir gündə əldə edilmir, bununla belə, Prezident Trampın ifadə etdiyi kimi, verilən vədlər yerinə yetirilir. Azərbaycan və Ermənistanın davamlı sülhə doğru atdığı addımlar dünya üçün nümunə təşkil edir və bu baxımdan biz regionun parlaq və firavan gələcəyini səbirsizliklə gözləyirik".

**Ankara Bakının sülh gündəliyini və Cənubi Qafqazda davamlı sabitlik siyasətini dəstəkləyir**

Azərbaycanın təşəbbüsü ilə formalaşan və son mərhələdə mühüm nəticələrə gətirib çıxaran sülh prosesi artıq yalnız Cənubi Qafqazın siyasi gündəliyi ilə məhdudlaşmır. Bu proses qlobal dünya, xüsusilə Avropanın aparıcı dövlətləri tərəfindən diqqətlə izlənilir və dəstəklənir. Çünki Cənubi Qafqazda uzunmüddətli sülh və təhlükəsizliyin təmin olunması təkcə Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması deyil, daha geniş coğrafiyada sabitliyin möhkəmlənməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Avropa dövlətləri də yaxşı anlayırlar ki, Cənubi Qafqazda davamlı sülh mühitinin yaranması region ölkələri arasında münasibətlərə yeni məzmun gətirməklə yanaşı, Avropa ilə Asiya arasında siyasi, iqtisadi və nəqliyyat əlaqələrinin inkişafına ciddi təkan verə bilər. Xüsusilə Azərbaycanın təşəbbüsü ilə gündəmə gələn nəqliyyat və kommunikasiya layihələri Şərqlə Qərbi birləşdirən marşrutların şaxələndirilməsi, ticarət dövriyyəsinin artırılması və enerji təhlükəsizliyinin möhkəmləndirilməsi baxımından strateji imkanlar açır.

Bakının sülh təşəbbüsünün mühüm cəhəti ondan ibarətdir ki, Azərbaycan regional sabitliyi yalnız siyasi razılaşma kimi deyil, həm də iqtisadi inkişafın əsas şərti kimi nəzərdən keçirir. Sülhün bərqərar olması sərhədlərin açılması, nəqliyyat bağlantılarının genişlənməsi, investisiyaların artması və yeni əməkdaşlıq formatlarının yaranması üçün əlverişli şərait formalaşdıracaq.

Bu baxımdan Azərbaycanın sülh gündəliyi regional çərçivəni aşaraq qlobal təhlükəsizlik və dünya iqtisadiyyatının dayanıqlılığı baxımından da əhəmiyyət kəsb edir. Cənubi Qafqazın qarşıdurma deyil, əməkdaşlıq məkanına çevrilməsi həm Avropanın, həm də bütövlükdə beynəlxalq ictimaiyyətin strateji maraqlarına cavab verir. Azərbaycanın rəsmi müttəfiqi, qardaş Türkiyə sülh prosesini daim dəstəkələyən ölkələrdəndir - Ankara bütün dövrlərdə verdiyi bəyanatlarda Bakının ədalətli və beynəlxalq hüquqa söykənən mövqeyini dəstəkləməklə yanaşı, sülhün ən real tənzimləmə mexanizmi olduğunu irəli sürüb. Türkiyənin xarici işlər naziri Hakan Fidan "Anadolu" agentliyinin redaktorları ilə dəyirmi masa müzakirəsi zamanı bildirib ki, Türkiyə Azərbaycan və Ermənistan arasında davamlı sülhün əldə edilməsi səylərini dəstəkləyir. Türkiyə diplomatiyasının rəhbəri Bakı ilə İrəvan arasında sülhə doğru davam edən dialoqa diqqət çəkib. O, Cənubi Qafqazın Türkiyənin təhlükəsizlik arxitekturasına birbaşa təsir edən bölgələrdən biri olduğunu qeyd edib.

**Berlinin dəstəyi Azərbaycanın sülh təşəbbüslərinin beynəlxalq əhəmiyyətini artırır**

Vurğulandığı kimi, Avropa məkanının əsas dövlətlərinin əksəriyyəti də sülh prosesinin açıq dəstəkçisi qismində çıxış edir, Bakının təşəbbüslərini yüksək dəyərləndirir. Məsələn, rəsmi Berlin də Azərbaycanın sülh gündəliyini açıq şəkildə dəstəkləyən dövlətlər sırasındadır. Ötən il Almaniya Prezidenti Bakıda mətbuata açıqlamasında bildirmişdi ki, "Siz qonşu Ermənistan arasında sülh münasibətləri haqqında danışdınız. Bu sülh prosesinin çox böyük əhəmiyyəti var... Ümid edirəm ki, hər şey alınacaq və biz, həmçinin




kənardan bacardığımız qədər, necə mümkündürsə öz dəstəyimizi verəcəyik".

Prezident İlham Əliyevin Almaniyaya rəsmi səfəri müstəvisində bu il iyulun 21-də Almaniyanın Federal Kansleri Fridrix Merts mətbuata bəyanatında bildirmişdi ki, "Cənab Prezident, Cənubi Qafqazda sülh, təhlükəsizlik və sabitlik bizim üçün də zəruridir. Almaniya və Avropa İttifaqı həmin geosiyasi baxımdan mühüm bölgədə davamlı dincliyə nail olmaqda çox maraqlıdırlar. Bu səbəbdən, cənab Prezident, biz Sizi Almaniyada salamlamaqdan xüsusi olaraq məmnunuq. Azərbaycan ilə Ermənistan arasında sülh sazişinin paraflanmasına nail olmağınız münasibətilə Sizi təbrik edirik. Bu, tarixi razılaşmadır. Onilliklər davam etmiş münaqişəni onun sayəsində aradan qaldırmaq fürsəti yaranır. Alman və Avropa perspektivindən nəyi edə bilsək, bundan şad olarıq".

Rəsmi Berlin Vaşinqton sülh prosesinə də eyni dəstəyi göstərir. Belə ki, Almaniyanın Xarici İşlər Nazirliyi ABŞ Prezidenti Donald Trampın dəstəyi ilə ötən il avqustun 8-də Vaşinqtonda keçirilmiş və Azərbaycan ilə Ermənistan arasında sülhün bərqərar olmasını təmin etmiş Sülh Sammitinin birinci ildönümü ilə əlaqədar paylaşım edib. Nazirliyin X hesabında edilən paylaşımda qeyd olunub: "Bu mühüm mərhələ iki ölkə arasındakı münasibətlərdə tarixi bir təkan yaratdı. Hər iki tərəfi bu yolda irəliləməyə təşviq edirik".

Nazirlik Almaniyanın Cənubi Qafqazda bu prosesə dəstəyini davam etdirəcəyini vurğulayıb. "Cənubi Qafqazda sülh və sabitlik bizim ortaq maraqlarımıza uyğundur. Almaniya Avropa İttifaqı və ABŞ-dan olan tərəfdaşları ilə birlikdə bu prosesi dəstəkləməyə davam edəcək", - deyə Almaniya XİN-in açıqlamasında bildirilib.

Qeyd olunmalıdır ki, Almaniyanın bu balanslaşdırılmış və konstruktiv yanaşması regional kommunikasiyaların açılması və beynəlxalq hüquq prinsipləri çərçivəsində yekun sülh sazişinin imzalanması prosesinə diplomatik dəstək baxımından böyük əhəmiyyət kəsb edir. Almaniyanın sülh prosesinə dəstəyi, Azərbaycanın təşəbbüslərini təqdir etməsi isə olduqca mühüm amildir.

**Vaşinqtonun siyasi iradəsi sülhü iqtisadi əməkdaşlıq və regional bağlantılarla tamamlayır**

Təbii ki, Vaşinqton sülh prosesinin inkişafında, onun reallaşmasında ABŞ-ın xidməti danılmaz və böyükdür. Ən mühüm cəhət isə odur ki, rəsmi Vaşinqton məsələyə ənənəvi "vasitəçilik" missiyası ilə yanaşmadı - sadəcə olaraq, iki tərəfin arasındakı razılaşmaya şahidlik etdi. Təbii ki, bu razılaşmanın, sülh sazişinin paraflanmasının məhz Vaşinqtonda, dünyanın ən mühüm siyasi paytaxtlarından birində və bəlkə də birincisində baş tutması sülh prosesinin siyasi mahiyyətini olduqca yüksəltdi. ABŞ Prezidenti Donald Trampın qlobal təhlükəsizliyin ən mühüm komponentlərindən biri kimi Cənubi Qafqazda yeni münasibətlər sisteminin formalaşmasına göstərdiyi dəstək regionun və bəlkə də Avrasiyanın gələcəyində yeni bir səhifə açır. Qeyd edək ki, ABŞ Dövlət katibi Marko Rubionun 8 avqust görüşünün ildönümü ilə bağlı bəyanatında bildirilir ki, bir il əvvəl bu gün Prezident Tramp Ağ Evdə Azərbaycan Prezidenti İlham Əliyevi və Ermənistan Baş naziri Nikol Paşinyanı birlikdə qəbul etmək və tarixi Birgə Bəyannamənin imzalanmasının şahidi olmaqla Ermənistan və Azərbaycan arasında sülhü təmin etdi. O qeyd edib ki, bu bəyannamə Cənubi Qafqazda onilliklərlə davam edən münaqişəyə son qoyub, "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nu (TRIPP) açıb. "Son 12 ay ərzində ABŞ bu vədi irəliləyişlərə çevirmək üçün Ermənistan və Azərbaycanla çiyin-çiyinə çalışıb. Dəmir yollarını, yolları, enerji və rəqəmsal infrastrukturu modernləşdirəcək multimodal tranzit marşrutu olan TRIPP Ermənistanda dəmir yolu üçün mühəndislik tədqiqatlarının artıq başlaması və Azərbaycanla Ermənistanı birləşdirəcək avtomobil və dəmir yolunun tikintisinin demək olar ki, başa çatması ilə reallığa çevrilmək yolundadır. Sülh ABŞ, Ermənistan və Azərbaycan arasında iqtisadi rifaha töhfə verəcək əlaqələrin gücləndirilməsinə qapı açdı. Bu gün məmnuniyyətlə elan edirəm ki, Trans-Xəzər Sahibkarlıq Fondu yeni seçilmiş direktorlar şurasının rəhbərliyi altında fəaliyyət göstərir, Cənubi Qafqaz və Orta Asiyada Trans-Xəzər Ticarət Marşrutu (Orta Dəhliz) boyunca özəl sektora investisiyaları təşviq etmək üçün ABŞ hökumətinin 201 milyon dollarlıq maliyyəsi ilə kapitallaşdırılıb", - deyə Rubio əlavə edib.

Rubio vurğulayıb ki, bu irəliləyiş sadə bir həqiqəti əks etdirir: sülh və rifah bir-birini gücləndirir. "TRIPP sadəcə infrastruktur layihəsi deyil, o, Trans-Xəzər Ticarət Marşrutunda həyati bir halqa, ABŞ və digərləri üçün kommersiya imkanlarının hərəkətverici qüvvəsi və uzunmüddətli mübahisələrin həllindən sonra iqtisadi əməkdaşlığın sülhü necə möhkəmləndirə biləcəyi üçün bir modeldir. Amerika Birləşmiş Ştatları bu təməl üzərində qurularkən Azərbaycan və Ermənistanla işləməyə tam sadiqdir. Hər iki ölkəni son bir ildə göstərdikləri cəsarət və uzaqgörənliyə görə təbrik edirik və Cənubi Qafqazda davamlı sülhə doğru davamlı irəliləyiş gözləyirik", - deyə Rubio vurğulayıb.

Beləliklə, Vaşinqtonda yaranan siyasi iradə və son bir ildə əldə olunan nəticələr göstərir ki, Cənubi Qafqaz artıq münaqişə və qarşıdurma ilə deyil, sülh, bağlantı və iqtisadi əməkdaşlıqla assosiasiya oluna bilər. Azərbaycanın irəli sürdüyü sülh gündəliyi bu prosesin əsas dayaqlarından biri olmaqla, regionun yeni inkişaf modelinin formalaşmasına xidmət edir. Qarşıdakı əsas vəzifə əldə edilmiş razılaşmaları tam reallaşdırmaq, sülhü möhkəmləndirmək və açılan yeni imkanları region xalqlarının rifahına çevirməkdir. Vaşinqtonda açılan yeni səhifə indi Cənubi Qafqazın davamlı sülh və firavanlıq kitabının növbəti fəsilləri ilə tamamlanmalıdır.

***Pərviz SADAYOĞLU***

# Azərbaycan - İran: Münasibətlərdə tarixə və müasir reallıqlara əsaslanan yeni mərhələ



Qonşu dövlətlər olan Azərbaycan və İran arasında əlaqələr hər zaman eyni bir düz xətt üzrə inkişaf etməyib. Zaman-zaman hansısa kənar güclərin təsiri ilə qarşılıqlı münasibətlərdə müəyyən dalğalanmalar izlənilib.

Lakin son zamanlarda Azərbaycan Prezidenti İlham Əliyevlə İran Prezidenti Məsud Pezeşkian arasında siyasi dialoqun intensivləşməsi iki ölkədə bir-birinə etimadın artdığını, münasibətlərdə yeni mərhələnin başladığını deməyə əsas verir. Liderlər görüşlərdə və telefon danışıqlarında ikitərəfli münasibətlərlə bağlı aktual müzakirələr aparıb və qarşılıqlı rəğbətlərini nümayiş etdiriblər.



## Liderlərin qətiyyəti və verdikləri mühüm siyasi mesajlar

Diqqətçəkən mühüm məqam ondan ibarətdir ki, hər iki tərəf siyasi, iqtisadi, humanitar və digər istiqamətlərdə əlaqələrin dərinləşməsinə güclü istək və qətiyyət ortaya qoyurlar. Bunu dövlət başçılarının son açıqlamalarından da görmək mümkündür. Söhbət İran Prezidentinin Azərbaycanla bağlı xoş fikirlər dilə gətirməsindən və Azərbaycan Prezidentinin bununla bağlı X səhifəsində ayrıca paylaşım etməsindən gedir. İran Prezidenti Məsud Pezeşkian Azərbaycanla münasibətlərin yaxşılaşdığını bildirərək, müharibə dövründə Bakının Tehrana əhəmiyyətli dəstək göstərdiyini açıqlayıb.

Pezeşkianın sözlərinə görə, müəyyən dövrdə bəzi marşrutların, bankın və səfirliyin fəaliyyəti ilə bağlı yaranmış problemlər Azərbaycan tərəfi ilə təmaslardan sonra qısa müddətdə həllini tapıb. “Biz zəng edib onlarla danışdıq və təxminən iki saat sonra hər şey yenidən açıldı. Bank və səfirlik fəaliyyətini bərpa etdi, marşrutlar açıldı”, - deyə İran Prezidenti bildirib.

Pezeşkian xüsusilə müharibə zamanı Azərbaycanın rolunu vurğulayıb. Onun sözlərinə görə, Azərbaycan ərazisindən müxtəlif təchizat marşrutlarının, o cümlədən Rusiya istiqamətindən daşımaların fəaliyyəti təmin edilib və Bakı İranın ehtiyac duyduğu məsələlərdə kömək göstərib. Fikirlərini ifadə edən Məsud Pezeşkian bildirib: “Müharibə zamanı onlar bizə böyük kömək etdilər. Müxtəlif marşrutlarla - istər Rusiyadan gələn tədarüklər, istərsə də öz imkanları hesabına - ehtiyacımız olan məsələlərin təşkilinə yardım göstərdilər və bizi müşayiət etdilər”.

**Liderlərin verdikləri mühüm siyasi mesajlar birlik, həmrəylik mesajlarıdır, eyni zamanda həmin bədxah qüvvələrə tutarlı cavabdır**

Azərbaycan Prezidenti İlham Əliyev isə X səhifəsində etdiyi paylaşımında ölkəmiz haqqında söylədiyi xoş və səmimi sözlərə görə İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkiana təşəkkür edib. İran Prezidentinin ölkəmizlə bağlı xoş fikirlər ifadə etməsi, öz növbəsində Azərbaycan Prezidentinin X səhifəsində etdiyi paylaşımında buna görə qonşu ölkənin dövlət başçısına təşəkkürünü bildirməsi hər iki tərəfin mühüm siyasi mesajı kimi dəyərləndirilməlidir. Qeyd etdiyimiz kimi, ikitərəfli münasibətlərə hansısa yollarla xələl gətirməyə çalışan qüvvələr var. Liderlərin verdikləri mühüm siyasi mesajlar birlik, həmrəylik mesajlarıdır, eyni zamanda həmin bədxah qüvvələrə tutarlı cavabdır.

## Azərbaycan və İran münasibətləri xüsusi özəlliyi ilə fərqlənir - xoş mərama əsaslanan qonşuluq siyasəti

Ölkələr və xalqlar üçün qonşuları seçmək anlayışı istisnalıq təşkil edir. Bu, bir tale məsələsi, alın yazısıdır. Həmçinin o da aksiom kimi qəbul olunur ki, regionda ayrılıqda götürülmüş hər hansı bir dövlətin uğurlu inkişafı mümkün deyil. Bu mənada, Azərbaycanın öz siyasətində daim yaxın qonşuluq prinsipindən çıxış etməsi diqqət çəkir. Prezident İlham Əliyev öz çıxışlarında dəfələrlə belə bir tezisi əsaslandırıb ki, qonşulardan təcrid olunmuş hər hansı bir ölkə uğurla inkişaf edə bilməz. Dövlət başçısının müəyyənləşdirdiyi bu strateji kursa uyğun olaraq müstəqil Azərbaycan işğalçı Ermənistan istisna olmaqla, bütün qonşu dövlətlərlə, o cümlədən də İranla yaxşı münasibətlər qurmağa nail olub.

**Humanitar böhranın nə demək olduğunu Azərbaycan dövləti və xalqı yaxşı bilir. Ərazi bütövlüyünü və suverenliyini tam təmin edən respublikamız da zamanında ədalətsiz müharibəyə cəlb olunan və humanitar fəlakətlə üzləşən ölkədir. Buna görə də dövlətimiz və cəmiyyətimiz dünyanın ayrı-ayrı bölgələrində yaşanan humanitar böhranlara həssas yanaşma sərgiləyir**

Azərbaycan və İran münasibətləri xüsusi özəlliyi ilə fərqlənir. Dünyada ayrı-ayrı dövlətlərin hansısa bir zaman kəsiyində yaxınlaşmaları və yaxud müxtəlif təşkilatlar daxilində müttəfiqlər olduqlarını bəyan etmələri hallarına çox şahidlik etmişik. Lakin zorən müttəfiqlik mümkün deyil. Dövlətlərin müəyyən bir zaman kəsiyində hansısa zərurətlər səbəbindən yaxınlaşmalarının ömrü də qısa olur, süni şəkildə qurulan münasibətlər dağılır, hətta bəzən düşmənçiliklə əvəzlənir. Azərbaycanın və İranın münasibətləri isə keçici maraqlardan yaranmayıb. Bunu bir sıra təbii amillər, o cümlədən həm tarixdən gələn ənənələr, həm də bugünkü reallıqlar şərtləndirir. Hər şeydən əvvəl Azərbaycanla İranın coğrafi bağlılığı var. Respublikamızın ən uzun dövlət sərhədi 765 kilometr olmaqla məhz bu ölkə ilədir. Bu amil də iki ölkə arasında əlaqələrin qurulmasını asanlaşdırır, daşımalarda xərcləri azaldır, vaxtı qısaldır, təhlükəsizliyi təmin edir.

Azərbaycanla İranın yaxşı qonşuluğunu, dostluğunu şərtləndirən digər bir mühüm amil tarixi köklərlə bağlıdır. Coğrafiya yaxın olduğu kimi, Azərbaycan və İran xalqlarının keçdikləri yolda da oxşarlıqlar çoxdur. Tarixi əlaqələr, etiqad birliyi, mədəni köklər, milli-mənəvi dəyərlər, xalqların həyat tərzindəki oxşarlıqlar və bu kimi digər cəhətlər dostluğumuzun möhkəm və etibarlı olmasına, necə deyərlər, təbii təminatlar verir.

İran həm də o dövlətdir ki, dünya üzrə müstəqil Azərbaycanın hüdudlarından kənarda ən çox azərbaycanlı məhz burada yaşayır. Onlar ta qədimdən İran tarixinin formalaşmasında, bu dövlətin inkişafında mühüm rol oynayıblar. Bu gün də İranın ictimai-siyasi və mədəni həyatında soydaşlarımızın rolu böyükdür.

## Dar və çətin günlərin dostları

Azərbaycan Prezidentinin X səhifəsində etdiyi paylaşımında hazırda çətinliklərlə üzləşən İrana Azərbaycanın münasibəti ilə bağlı təsirli ifadələr yer alıb. Paylaşımda deyilir: “Cənab Prezident Məsud Pezeşkian, Azərbaycan haqqında söylədiyiniz xoş və səmimi sözlərə görə Sizə təşəkkür edirəm. Azərbaycan və İran xalqları dar və çətin günlərdə hər zaman bir-birinin yanında olublar. Bölgəmizdə baş vermiş son hadisələr fonunda Azərbaycanın qardaş İran xalqının yanında olduğu bir daha özünü göstərdi”.

Bəli, humanizm respublikamızın davamlı siyasətinin fundamental prinsiplərindən biridir. Azərbaycan dost və qonşu ölkələr çətin vəziyyətə düşdükdə, heç vaxt laqeyd qalmayıb və hər zaman köməyə tələsib.

Qeyd edək ki, humanitar böhranın nə demək olduğunu Azərbaycan dövləti və xalqı yaxşı bilir. Ərazi bütövlüyünü və suverenliyini tam təmin edən respublikamız da zamanında ədalətsiz müharibəyə cəlb olunan və humanitar fəlakətlə üzləşən ölkədir. Buna görə də dövlətimiz və cəmiyyətimiz dünyanın ayrı-ayrı bölgələrində yaşanan humanitar böhranlara həssas yanaşma sərgiləyir. Ölkəmiz daim o mövqedən çıxış edir ki, qlobal təhdidlər qarşısında beynəlxalq həmrəylik daha da gücləndirilməlidir. Bu gün biz qürur duyuruq ki, güclü Azərbaycanın dünyanın ayrı-ayrı regionlarını əhatə edən yardım proqramları uğurla icra edilir və bundan milyonlarla insan faydalanır.

Bu barədə konkret təsəvvürün yaranması üçün bəzi faktları xatırlatmaq yerinə düşər. Qlobal səhiyyə böhranı dövründə Azərbaycan özü də pandemiya ilə mübarizədə olmasına, Vətən müharibəsi aparmasına baxmayaraq, ehtiyacı olan digər dövlətləri də unutmayıb. Azərbaycan əksəriyyəti Qoşulmama Hərəkatının (QH) üzvləri olmaqla, 80-dən çox ölkəyə koronavirusla bağlı maliyyə və humanitar yardım göstərib. Həmçinin Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatına da yardım göstərib və təşkilata 10 milyon ABŞ dolları dəyərində könüllü maliyyə töhfəsi verib.

Uzanan müharibə ilə əlaqədar Ukraynada yaşanan humanitar fəlakət hər kəsə bəllidir. Müharibə başlayandan bəri Azərbaycanın Ukraynaya humanitar yardımı davamlı hal alıb. Respublikamızdan dost ölkəyə yardımlar müxtəlif istiqamətlərdə göstərilir. Xatırladaq ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü əsasında ölkəmizdə Ukraynadan olan uşaqlar üçün reabilitasiya kursları təşkil olunub. O cümlədən Azərbaycan Ukraynanın kritik durumda olan enerji təchizatına dəstək verir. İndiyədək respublikamızdan Ukraynaya bir neçə dəfə enerji avadanlığı yüklənmiş humanitar yardım karvanları yola salınıb.

Suriyaya dəstək Azərbaycanın humanitar missiyasının daha bir ifadəsidir. Artıq Suriyada yeni dönəm başlayıb. Ölkənin keçid dövrü hakimiyyəti Bəşər Əsəd rejiminin kədərli miraslarının aradan qaldırılması kimi ağır bir prosesi irəli aparmaqdadır. Çətinliklə də olsa, uğurlar qazanılır. Respublikamız Suriyaya dəstəyini ilk ifadə edən dövlətlər sırasında yer alır. Bu dəstək müxtəlif istiqamətləri əhatə edir. O cümlədən, ölkəmizdən Suriyaya qaz ixracına da start verilib.

Azərbaycanın müharibə ilə əlaqədar İranın üzləşdiyi çətinliklərə həssas yanaşması da ölkəmizin xoş mərama əsaslanan qonşuluq siyasətinə və humanizm prinsiplərinə verdiyi böyük önəmin ifadəsidir. Xatırladaq ki, Prezident İlham Əliyev İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneinin və bir çox mülki şəxsin həlak olması ilə əlaqədar İranın Azərbaycandakı səfirliyinə gələrək başsağlığı verib. Daha sonra dövlətimizin başçısı İran Prezidenti Məsud Pezeşkiana ünvanladığı başsağlığında Xameneinin İran dövlətinin və cəmiyyətinin həyatında mühüm rol oynadığını qeyd edib və dost, qardaş İran xalqına sülh, sabitlik və əmin-amanlıq arzulayıb. Bu addımın siyasi və mənəvi əhəmiyyəti çox böyükdür. Azərbaycanın və onun Liderinin davranışları çətin gündə dost dövlətin və xalqın yanında olmaq, həmrəylik göstərmək nümunəsidir.

Bu çətin günlərdə Azərbaycandan İrana dövlətimizin başçısının tapşırığına uyğun olaraq bir neçə dəfə humanitar yardım karvanları yola salınıb. Yardım karvanlarına gündəlik tələbat malları, həmçinin dost İran xalqı üçün bayram sovqatı daxil edilib. Ölkəmiz eyni zamanda xoş məramdan çıxış etməklə digər ölkələrdən göndərilən humanitar yardımların da İrana çatdırılmasına vasitəçilik edib ki, bunlar da Məsud Pezeşkianın açıqlamasında da qeyd olunduğu kimi, qonşu ölkədə yüksək dəyərləndirilib.

Regiondakı geosiyasi reallıqları nəzərə aldıqda Azərbaycanın dar gündə İranın yanında dayanması böyük siyasi qətiyyət, cəsarət tələb edir. İndiki məqamda bəzi dövlətlərin İrana münasibətdə ehtiyatlı davrandığı, gözləmə mövqeyi tutduğu müşahidə edilir. Bu siyahıya həmçinin bəzi fürsətcil qonşu dövlətlər də daxildir. Azərbaycan isə müharibənin digər iştirakçıları tərəfindən ehtimal olunan təzyiqlərə rəğmən, qətiyyətlə davranır və humanitar böhranla üzləşən İran xalqına dəstək verməkdən çəkinmir. Ölkəmiz dünyada layaqətli dövlət imicini məhz bu kimi davranışlar sərgiləməsi sayəsində qazanıb. Azərbaycan kimlərinsə diqtəsi ilə qərarlar qəbul etmir və dostlarını da özü seçib müəyyənləşdirir. İran da Azərbaycanın doğru seçim edərək müəyyənləşdirdiyi dost ölkədir.

## İkitərəfli əməkdaşlıq regional sabitliyə və inkişafa mühüm töhfədir

Azərbaycanla İranı bir-birinə yalnız sərhədlər bağlamır. Son illərdə iki ölkə arasında bir sıra iqtisadi layihələrin icrası uğurla təmin olunub. Bakı və Tehran Şimal - Cənub nəqliyyat dəhlizinin inkişafına böyük maraq göstərirlər. Ölkələrimiz Araz çayı vasitəsilə bənzərsiz su diplomatiyası həyata keçirir və burada hidroqovşaqların inşası uğurla tamamlanıb. Araz çayı üzərində “Xudafərin” və “Qız Qalası” hidroqovşaqlarının inşası ilə ikitərəfli münasibətlərdə yeni bir səhifə açılıb. Ölkələrimiz arasında xoş niyyətə əsaslanan münasibətlərin inkişafını təmin edən siyasətin töhfəsi olaraq uzun illərdir fəaliyyət göstərən Araz, Mil-Muğan su anbarları və Araz Su Elektrik Stansiyasından sonra Araz çayı üzərində “Xudafərin” və “Qız Qalası” hidroqovşaqları və su elektrik stansiyaları layihəsinin həyata keçirilməsi göstərir ki, Azərbaycan və İran öz aralarındakı sərhədi davamlı şəkildə səmərəli əməkdaşlıq imkanlarına uğurla çevirən ölkələrdir. “Xudafərin” və “Qız Qalası” layihələri hər iki ölkənin mənafeyi naminə inşa olunub. Həm İran, həm də Azərbaycan uzun illər bundan sonra da bəhs olunan layihədən böyük iqtisadi dividentlər qazanacaqlar. Eləcə də Araz çayı üzərində yeni körpünün tikintisinin tamamlanması ilə iki ölkə arasında nəqliyyat bağlantıları daha da intensivləşəcək. Yeri gəlmişkən, Azərbaycanın və İranın dövlət başçıları telefon söhbəti əsnasında müştərək iqtisadi layihələrin inkişaf perspektivləri ilə bağlı fikir mübadiləsi aparıblar.

Azərbaycan və İranın əməkdaşlığı yalnız ikitərəfli münasibətlər çərçivəsində dəyərləndirilməməlidir. İndiki həssas dönəmdə qonşu dövlətlərin müxtəlif layihələr üzrə əməkdaşlıq etmələri həm də regional münasibətlər kontekstində mühüm əhəmiyyət daşıyır. İki ölkə arasında genişlənən iqtisadi əlaqələr eyni zamanda regional inkişafa və sabitliyə mühüm töhfədir.

*Mübariz FEYİZLİ*



# “Terrorsuz Türkiyə” uğrunda...

## Ankara yeni qanun qəbul etdi

Uzun illərdir ki, Türkiyəni narahat edən, dinc insanların ölümü, ordu mənsublarının həyatını itirməsi ilə nəticələnən terror təhdidi tam aradan qalxa bilər. Belə ki, “Terrorsuz Türkiyə” məqsədi ilə hazırlanmış Milli Həmrəyliyin və Sosial İnteqrasiyanın Gücləndirilməsi haqqında Qanun Layihəsi Türkiyə Böyük Millət Məclisində səsverməyə çıxarılıb. “Milliyyət” xəbər verir ki, 12 saatlıq müzakirələrdən sonra keçirilən səsvermədən sonra qanun layihəsi qəbul edilib. Verilən məlumata görə, qayda dərhal qüvvəyə minməyəcək. Prosesin ən vacib mərhələsi PKK və Kİİ-nin (Kürdüstan İcmalar İttifaqı) silahı yerə qoyduğunun rəsmi təsdiqi və qətiyyəti olacaq.

### Qanuna görə...

Qeyd edək ki, 562 deputatdan 468-i normativ aktın lehinə səs verib. 12 maddədən ibarət olan qanunvericilik təşəbbüsünün məqsədi zorakılıq yolundan imtina etmiş cinayətkar təşkilat üzvlərinin cəmiyyətə yenidən inteqrasiyasının təmin olunmasıdır.

Sənədə əsasən, terror təşkilatının tərkibində törətdikləri qanunazidd əməllərə görə 15 ilədək azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulan şəxslər barəsində cəzanın icrası 5 il müddətinə təxirə salına biləcək. Əməllərinə görə 15 ildən artıq və ya ömürlük azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulan şəxslər üçün isə bu müddət 10 il olacaq.

Qanundan yararlanmaq istəyən şəxslər 6 ay ərzində müraciət edə biləcəklər. Bununla yanaşı, cəzanın icrasının təxirə salınması iddia müddətinin başa çatmasına görə cinayət məsuliyyətindən azad edilmək üçün əsas hesab olunmayacaq.

Terrorçu PKK-nın rəhbərləri, qəsdən adamöldürmə cinayəti törətmiş terrorçular, habelə 2005-ci il iyunun 1-dək ömürlük azadlıqdan məhrumetmə cəzasını nəzərdə tutan, xüsusilə, ağır cinayətlər törətməkdə təqsirləndirilən şəxslər çərçivə qanununun tələblərindən yararlana bilməyəcəklər.

Prosesə nəzarəti Türkiyənin Ədliyyə, Xarici İşlər və Daxili İşlər nazirlikləri, Prezident Administrasiyasının Katibliyi, Milli Kəşfiyyat Təşkilatı və Milli Təhlükəsizlik Şurasının Katibliyinin birgə iştirakı ilə formalaşdırılacaq xüsusi qurum həyata keçirəcək.





### Türkiyə ictimaiyyəti qanunu dəstəkləyir...

TBMM-də təmsil olunan bir çox partiyaların nümayəndələri qanun layihəsi ilə bağlı fikirlərini bildirərkən, müsbət rəy ifadə ediblər. Belə ki, Yeni Yol Partiyasının qrup lideri Mehmet Emin Ekmen MHP sədri Baxçalıya “Terrorsuz Türkiyə” prosesi ilə bağlı mövqeyinə görə təşəkkür edib. CHP Qars millət vəkili İnan Akgün Alp bu qanun sayəsində yeni bir siyasi mədəniyyətin inkişaf edəcəyini bildirib.

TBMM sədri Numan Kurtulmuş da mətbuata açıqlamasında bildirib: “Birlikdə yeni bir dövr quracağıq. Bu, tarixi bir nailiyyətdir. Türkiyə ən çətin məsələlərini belə müttəfiqlik yolu ilə həll etmək gücünə malikdir. Bundan sonra proses rahat keçəcək.”

Ölkənin vitse-prezidenti Cevdet Yılmaz bildirib ki, “468 “bəli” səsi siyasi konsensus və ictimai mülkiyyət baxımından son dərəcə vacib və dəyərlidir.”

AK Partiya Qrup rəhbəri sədri Abdullah Gülər isə deyib: “Cənab Prezidentimiz Ərdoğana, MHP sədri Baxçalıya, DEM Partiyasının həmsədrlərinə, İmralıya səfər edən millət vəkillərimizə, AK Partiya qrupumuza, MHP millət vəkillərimizə və Yeni Yol, Yeni Partiya və CHP millət vəkillərinə güclü dəstəyinə və prosesə verdiyi töhfələrə görə səmimi təşəkkürümü bildirmək istəyirəm. Ümidsizliyə dözümümüz yoxdur. Türkiyə üçün yeni üfüqlər açmaq istəyirik. Nəyin bahasına olursa olsun, buna birlikdə nail olacağıq. Məqsədimiz silah və zorakılığın Türkiyədə bir daha müzakirə olunmamasını təmin etməkdir. Bu qanun Türkiyə üçün əsl modeldir. Bu torpağın uşaqları bu problemi səmimi qəlbdən həll etmək və daha güclü, daha qardaş Türkiyəyə doğru çiyin-çiyinə getmək istəyirlər”.

MHP-nin Sədr müavini Feti Yıldız bildirib: “1 oktyabr 2024-cü ildə, Türkiyə Böyük Millət Məclisinin qanunvericilik ilinin açılış mərasimində, sədr Baxçalı ilə DEM Partiyasının millət vəkilləri arasında 677 gün əvvəl baş tutan əl sıxışması və onlara ünvanladığı sözlər Türkiyə siyasi həyatında yeni bir qapı açdı. Yenə də, 22 oktyabrda qrup iclasında etdiyi tarixi çağırış Türkiyə siyasətində dönüş nöqtəsinə çevrildi. Bu tarixi çağırış bir mərhələdir, əsrin ən cəsarətli transformativ siyasi addımıdır. Bu addım və keçən zaman PKK-nın özünü dağıtması və silahlarını yerə qoymaq qərarına gəlməsi ilə nəticələndi. Biz sona qədər terrorsuz bir Türkiyənin tərəfdarıyıq”.

### Proses necə başladı?

Beləliklə, bu qanunun qəbulu Türkiyədə PKK-nın silahı yerə qoyması prosesini simvolik addımdan hüquqi mərhələyə keçirir. Qeyd edək ki, prosesin siyasi başlanğıcı 2024-cü ilin oktyabrında MHP lideri Dövlət Baxçalının parlamentdə çıxış edərək Abdullah Öcalanın PKK-nın ləğv edildiyini elan etməsi ilə bağlı çağırışı ilə əlaqələndirilir. Bu çağırış Türkiyə siyasi mühitində gözlənilməz dönüş yaratdı. 2025-ci ilin fevralında İmralı həbsxanasında olan PKK lideri Abdullah Öcalan təşkilata silahlı mübarizəni dayandırmaq, silahı yerə qoymaq və özünü buraxmaq çağırışı etdi. 2025-ci ilin mayında isə PKK qurultay keçirərək ləğv və silahlı mübarizəyə son qoymaq barədə qərarını açıqladı. Prosesin ən mühüm simvolik mərhələsi 11 iyul 2025-ci ildə İraqın Süleymaniyə vilayətinin Dukan bölgəsində baş verdi. PKK-nın ilk qrupu silahlarını təhvil verdi və silahlar məhv edilmək məqsədilə yandırıldı. Türkiyə mediasının məlumatına görə, bu, “Terrorsuz Türkiyə” prosesinin ilk konkret mərhələsi idi. Bu mərhələ birdəfəlik silah təhvilvermə deyil, mərhələli proses kimi nəzərdə tutulmuşdu. Silahların tam təhvil verilməsi və PKK-nın hərbi strukturunun aradan qaldırılması əsas hədəf idi.

Siyasi analitiklər qeyd edir ki, proses Türkiyə hakimiyyətinin “Terrorsuz Türkiyə” strategiyasının uğuruna hədəflənib. Məqsəd PKK-nın silahlı fəaliyyətinin, təşkilati strukturunun və Türkiyə ərazisində terror təhlükəsinin tamamilə aradan qaldırılmasıdır. Qanun isə prosesi hüquqi müstəviyə daşıyır.

### “Terrorsuz Türkiyə” hədəfinin dividendləri...

Qeyd edək ki, qardaş Türkiyədə terrorun bitməsi regionda sabitliyin, təhlükəsizliyin təmini istiqamətində olduqca vacib bir addımdır. Bu, həm də Azərbaycanın Cənubi Qafqazda formalaşdırdığı sülh mühitinin paralel inkişaf etdirilməsi baxımından da mühüm əhəmiyyət daşıyır. Türkiyə - PKK qarşıdurmasının başa çatması Türkiyənin daxili təhlükəsizliyini gücləndirə bilər ki, bu da Ankara üçün mühüm üstünlüklər formalaşdırır. Eyni zamanda, bu proses Ankaranın İraq və Suriya ilə münasibətlərində yeni imkanlar yarada bilər, həmçinin Türkiyənin regionun aparıcı aktoru kimi mövqeyini gücləndirəcək. “Terrorsuz Türkiyə” prosesi Ankaranın Cənubi Qafqaz, Orta Şərq və Türk dünyası istiqamətində daha çox siyasi-diplomatik resurs ayırmasına şərait yarada bilər. Ən əsası isə, Ankara-Bakı strateji müttəfiqliyi baxımından Türkiyənin regional gücünün daha da artması Azərbaycanın maraqlarına uyğun yeni imkanlar yarada bilər.

***P.İSMAYILOV***

# Ermənistan KTMT-də səsvermə hüququndan məhrum ediləcək?

Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında (KTMT) səsvermə hüququndan məhrum edilməsi məsələsinə Kollektiv Təhlükəsizlik Şurasının noyabrın 11-də Moskvada keçiriləcək iclasında baxıla bilər.

Bu barədə Rusiya xarici işlər nazirinin müavini Mixail Qaluzin bildirib.



O, KTMT üzvlərindən birinə qarşı məhdudlaşdırıcı tədbirlərin tətbiqi ilə bağlı qərarların təşkilatın dövlət başçılarının da daxil olduğu Kollektiv Təhlükəsizlik Şurasının səlahiyyətlərinə aid olduğunu bildirib. Bu cür qərarlar KTMT Nizamnaməsinin müddəalarına əsasən qəbul edilə bilər.

Qaluzin qeyd edib ki, Kollektiv Təhlükəsizlik Şurasının növbəti iclası noyabrın 11-də Moskvada keçiriləcək.

Rusiya xarici işlər nazirinin müavini əlavə edib ki, KTMT Nizamnaməsi beynəlxalq müqavilədir və təşkilatın orqanlarının fəaliyyətinin maliyyələşdirilməsi də daxil olmaqla, bütün üzv ölkələr tərəfindən tətbiq olunmalıdır.

O vurğulayıb ki, İrəvanın KTMT-də iştirakdan və təşkilatın illik büdcə qərarlarını imzalamaqdan imtina etməsi Ermənistanın milli töhfəsini vaxtında ödəmək öhdəliyini ləğv etmir. M. Qaluzin qeyd edib ki, beynəlxalq təşkilatların fundamental sənədlərində üzv dövlətlərin öz öhdəliklərini yerinə yetirməməsi halında prosedurlar nəzərdə tutulur və KTMT də həmin məsələdə istisna deyil.

# Avropa iqtisadiyyatını nə gözləyir?



Niderlandda yerləşən “Triodos Bank”ın araşdırmasına görə, bu yay Avropada müşahidə olunan anomal hava şəraiti və uzunmüddətli quraqlıq Avropa İttifaqı (Aİ) iqtisadiyyatına təxminən 180 milyard avro zərər vuracaq və əvvəlcədən proqnozlaşdırılan iqtisadi artımı aradan qaldıracaq.

“Triodos Bank” Avropada anomal isti hava şəraitinin iqtisadi təsirləri ilə bağlı “İsti Yay İqtisadiyyatı” adlı araşdırmasını yayımlayıb.

Araşdırmada qeyd olunub ki, Avropada rekord istilər və uzunmüddətli quraqlıq insan sağlamlığı və ekosistemlərlə yanaşı, kənd təsərrüfatına, enerji sektoruna, nəqliyyata və əmək məhsuldarlığına da mənfi təsir göstərir.

“Triodos Bank”ın yeni təhlilinə görə, yay aylarında müşahidə olunan ekstremal hava şəraiti 2026-cı ildə Aİ-nin Ümumi Daxili Məhsulunu (ÜDM) təxminən 1 faiz azalda bilər. Bu, təxminən 180 milyard avroya bərabərdir və nəticədə il üzrə əvvəlcədən proqnozlaşdırılan iqtisadi artım faktiki olaraq aradan qalxacaq.

Araşdırma göstərib ki, həddindən artıq istilərin iqtisadiyyata ən böyük təsiri əmək məhsuldarlığının azalmasından qaynaqlanır. Qeyd olunub ki, temperatur təxminən 25-30 dərəcəni keçdikdən sonra işçilərin məhsuldarlığı nəzərəçarpacaq dərəcədə azalır. Bu təsir xüsusilə fiziki güc tələb edən işlərdə çalışanlara, açıq havada işləyənlərə və kondisioner sistemi olmayan iş yerlərində çalışanlara daha ciddi təsir göstərir. Araşdırmada, həmçinin bildirilib ki, ekstremal istilər ofis işçilərinin fəaliyyətinə və yuxu keyfiyyətinə də mənfi təsir göstərə, isti günlərdə işə çıxmama hallarının artmasına səbəb ola bilər. 2026-cı ilin yayında yüksək temperaturun əmək məhsuldarlığının azalması səbəbindən Aİ-nin ÜDM-də orta hesabla təxminən 0,6 faiz itkiyə səbəb olacağı proqnozlaşdırılır.

Araşdırmada anomal istilər və quraqlıq səbəbindən Aİ-də kənd təsərrüfatı istehsalının 3-7 faiz azalmasının gözlənildiyi bildirilib. Ərzaq qiymətlərinin artması, enerji istehsalında məhdudiyyətlər, elektrik enerjisinin bahalaşması, həmçinin avtomobil yolları, dəmir yolları və daxili su yollarında yaranan fasilələrin iqtisadi zərəri daha da artırdığı qeyd edilib.

Araşdırmaya görə, həddindən artıq isti havadan ən çox Fransanın təsirlənəcəyi gözlənilir. Təkrarlanan isti hava dalğalarının ölkənin ÜDM-ni təxminən 1,4 faiz azaldacağı və bunun nəticəsində Fransa iqtisadiyyatının illik 0,6 faiz daralmasına səbəb olacağı proqnozlaşdırılır.

Araşdırmada İtaliya, İspaniya və Belçikada da əhəmiyyətli iqtisadi itkilərin gözlənildiyi bildirilib.

Yeri gəlmişkən, Avropa Komissiyası bu il Aİ iqtisadiyyatının 1,1 faiz artacağını proqnozlaşdırmışdı.

## Üç ölkənin ittifaqı Yaxın Şərqdə qüvvələr balansını necə dəyişir?

# Məkkə üçbucağı

### Yeni təhlükəsizlik arxitekturasının formalaşması

Yaxın Şərqdə geosiyasi proseslər son illər yalnız ayrı-ayrı dövlətlər arasında münasibətlərin dəyişməsi ilə məhdudlaşmır, daha mühüm proses regionun təhlükəsizlik arxitekturasının tədricən yenidən qurulmasıdır. Bu baxımdan 7 avqust 2026-cı ildə Məkkədə Səudiyyə Ərəbistanının vəliəhdi və Baş naziri Məhəmməd bin Salman bin Əbdüləziz Al Səud, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif tərəfindən imzalanmış Səudiyyə Ərəbistanı, Türkiyə və Pakistan arasında üçtərəfli müdafiə razılaşması xüsusi geosiyasi əhəmiyyət daşıyır. Sazişin əsas siyasi-hərbi prinsipi "birinə qarşı silahlı hücum hamısına qarşı hücum sayılır" yanaşmasıdır. Bu, kollektiv müdafiə mexanizmini nəzərdə tutur. 2025-ci ilin 17 sentyabr tarixində Ər-Riyadda Səudiyyə Ərəbistanı ilə Pakistan arasında ayrıca "Strategic Mutual Defence Agreement" (Strateji Qarşılıqlı Müdafiə Sazişi) imzalanmışdı. Lakin 2026-cı il Məkkə sazişi üç ölkə arasında daha geniş regional təhlükəsizlik mexanizmi yaratmaq, müdafiə texnologiyası və sənaye imkanları ilə üçüncü sütunu əlavə etmək məqsədini daşıyır. Fərq əsasən tərəflərin sayı, əhatə dairəsi və strateji hədəfdədir. Sadə desək, 2025-ci ildə Səudiyyə Ərəbistanı və Pakistan "Bir-birimizi müdafiə edirik" deyirdisə, 2026-cı ildə Səudiyyə Ərəbistanı, Türkiyə və Pakistan "Qarşılıqlı müdafiəni daha geniş regional və hərbi-sənaye əməkdaşlığına çeviririk" deyir.

Razılaşmanın mahiyyəti ondan ibarətdir ki, üç dövlət təhlükəsizlik sahəsində daha sıx əməkdaşlığa keçməklə yanaşı, bir-birinin müdafiəsini qarşılıqlı şəkildə təmin etməyə yönəlmiş mexanizm formalaşdırır. Sənəddə əks olunan yanaşmaya görə, üç ölkədən birinə qarşı silahlı hücum digər iki dövlət üçün də təhlükə kimi qiymətləndirilir. Bu müddəa məzmun etibarilə kollektiv müdafiə prinsipini ön plana çıxarır. Bu, simvolik sənəd deyil, çünki söhbət yalnız hərbi əməkdaşlıqdan yox, üç müxtəlif geosiyasi resursun vahid təhlükəsizlik formatında birləşdirilməsindən gedir. Səudiyyə Ərəbistanı maliyyə və enerji imkanlarına, Türkiyə inkişaf etmiş müdafiə sənayesinə və hərbi texnologiyalara, Pakistan isə böyük orduya, nüvə dövləti statusuna və uzunmüddətli hərbi təcrübəyə malikdir. Başqa sözlə, ittifaqın üç sütunu bir-birini tamamlayır: maliyyə, texnologiya və hərbi potensial.

**Səudiyyə Ərəbistanı - maliyyə gücü**

Bu üçbucağın iqtisadi ağırlıq mərkəzlərindən biri Səudiyyə Ərəbistanıdır. Krallığın illik hərbi xərcləri 83 milyard dollardan çoxdur. Bu rəqəm Səudiyyə Ərəbistanının müdafiə və təhlükəsizlik layihələrini maliyyələşdirməsi baxımından nə qədər böyük imkanlara malik olduğunu göstərir. Lakin burada mühüm paradoks mövcuddur: Səudiyyə Ərəbistanı böyük maliyyə resurslarına malik olsa da, uzun müddət müasir silah sistemlərinin əhəmiyyətli hissəsinin xaricdən alınmasına əsaslanıb. Bu isə hərbi təhlükəsizliyi yalnız maliyyə məsələsinə yox, həm də siyasi asılılıq məsələsinə çevirir. Silahın alınması ilə silahın texnologiyasına sahib olmaq eyni şey deyil. Məhz buna görə Ər-Riyadın son illərdə müdafiə sənayesinin lokallaşdırılmasına, texnologiya transferinə və yerli istehsala verdiyi əhəmiyyət təsadüfi deyil. Bu proses Səudiyyə Ərəbistanının "Vision 2030" strategiyası çərçivəsində müdafiə sənayesinin inkişafı ilə əlaqələndirilir. Bu baxımdan Türkiyə ilə əməkdaşlıq Səudiyyə Ərəbistanı üçün yalnız hərbi yox, həm də sənaye və texnoloji məsələdir. Əgər əvvəllər model əsasən "pul ödə və hazır silah al" prinsipi üzərində qurulurdusa, yeni yanaşma "maliyyələşdir, birgə istehsal et və texnologiyaya sahib ol" modelinə keçidi nəzərdə tutur. Bu dəyişiklik uzunmüddətli perspektivdə daha böyük nəticələr yarada bilər.

**Türkiyə - texnoloji və sənaye həlqəsi**

Üçbucağın ikinci sütununu Türkiyənin müdafiə sənayesi təşkil edir. Bu ölkənin müdafiə büdcəsi təxminən 30 milyard dollardır. Daha mühüm məsələ isə bu vəsaitin hansı texnoloji bazaya söykənməsidir. Türkiyə son illər pilotsuz uçuş aparatları, elektron müharibə sistemləri, zirehli texnika, raket sistemləri və hərbi dəniz platformaları daxil olmaqla, müxtəlif istiqamətlərdə öz müdafiə sənayesini genişləndirib. Ankara bu üçtərəfli formatda əsasən texnoloji rol oynayır. Səudiyyə Ərəbistanının maliyyə imkanları ilə Türkiyənin müdafiə texnologiyalarının birləşməsi isə prinsip etibarilə yeni istehsal modelinin yaranmasına təkan verir.

Burada söhbət yalnız silah satışından getmir. Əsas məsələ birgə tədqiqat və inkişaf proqramlarının, istehsal müəssisələrinin və texnoloji əməkdaşlığın yaradılmasıdır. Xüsusilə elmi-tədqiqat və təcrübi-konstruktor işlərinin (Research and Development R&D) Səudiyyə Ərəbistanının maliyyə imkanları hesabına genişləndirilməsi və istehsalın lokallaşdırılması perspektivi nəzərdə tutulur. Bu proses reallaşarsa, Yaxın Şərqdə müdafiə sənayesinin coğrafiyası dəyişə bilər.

**Pakistan - hərbi potensial və nüvə amili**

Üçbucağın daha bir tərəfi Pakistandır. Bu ölkənin müdafiə büdcəsi təxminən 10,8 milyard dollar, yəni təqribən 3 trilyon Pakistan rupisi səviyyəsindədir. Lakin Pakistanın strateji çəkisini yalnız müdafiə büdcəsi ilə ölçmək mümkün deyil. Ölkənin nüvə dövləti statusu və böyük hərbi qüvvələri regional təhlükəsizlik hesablamalarında onu xüsusi mövqeyə çıxarır. Burada mühüm məqamı xüsusi qeyd etmək lazımdır: Pakistanın nüvə potensialının Səudiyyə Ərəbistanına avtomatik şəkildə "nüvə çətiri" yaratdığı nəticəsini çıxarmaq düzgün olmazdı. Pakistan və Cənubi Asiyanın nüvə strategiyası, hərbi modernləşmə və strateji sabitlik məsələləri üzrə çalışan pakistanlı beynəlxalq münasibətlər və təhlükəsizlik tədqiqatçısı, Avstraliya Milli Universitetinin (ANU) Strategic & Defence Studies Centre-də fəxri müəllim, ekspert Mansur Əhmədin (Dr. Mansoor Ahmed) mövqeyi məhz bu istiqamətdədir. Onun fikrincə, ittifaqın əsas qazancı nüvə texnologiyasının ötürülməsi deyil, müdafiə sənayesi əməkdaşlığının genişlənməsidir. Pakistan və Türkiyənin sənaye və texnoloji imkanları Səudiyyə Ərəbistanının maliyyə resursları ilə birləşəndə daha mühüm nəticə yarana bilər. Bu, məsələnin daha realist tərəfidir, çünki yeni ittifaqın gücü təkcə nüvə silahının mövcudluğunda deyil. Əsas güc üç ölkədəki resursların bir-birini tamamlamasındadır.



**"Birimizə hücum - hamımıza hücum" prinsipi nəyi dəyişir?**

Məkkə razılaşmasının ən diqqətçəkən tərəfi kollektiv müdafiə prinsipidir. Bu prinsip siyasi baxımdan üç dövlətin hər birinə qarşı potensial hərbi təzyiqin qiymətini yüksəldir. Əvvəllər hər hansı regional böhran zamanı ayrı-ayrı dövlətlərin öz milli imkanları çərçivəsində cavab verməsi ehtimalı daha yüksək idisə, yeni mexanizm belə bir siqnal yaradır: üç ölkədən birinə qarşı hərbi təhlükə digər iki ölkənin də təhlükəsizlik gündəminə daxil ola bilər. Bu, xüsusilə İran ətrafında yaranan təhlükəsizlik dilemması fonunda əhəmiyyətlidir. Yaxın Şərqdə təhlükəsizlik problemləri artıq yalnız klassik dövlətlərarası müharibə ilə ölçülmür. Dəniz yollarına hücumlar, pilotsuz aparatların istifadəsi, raket təhlükəsi, enerji infrastrukturu və dövlət olmayan silahlı qrupların fəaliyyəti təhlükəsizlik anlayışını dəyişib. Belə şəraitdə üç dövlətin hərbi imkanlarını əlaqələndirməsi onların ayrı-ayrılıqda malik olduqları imkanlardan daha böyük çəkindirmə effekti yarada bilər.

**ABŞ-dan təhlükəsizlik asılılığının azalması**

Məkkə formatının daha geniş geosiyasi mənası məhz burada ortaya çıxır. Səudiyyə Ərəbistanı uzun illər ərzində təhlükəsizlik məsələlərində ABŞ-ın hərbi və siyasi imkanlarına böyük əhəmiyyət verib. Türkiyə isə NATO üzvüdür. Pakistanın da ABŞ-la uzunmüddətli hərbi-siyasi münasibətləri olub. Lakin yeni üçtərəfli formatın meydana çıxması başqa bir tendensiyanı göstərir: region dövlətləri təhlükəsizliyin təmin edilməsində yalnız xarici güclərə arxalanmaq istəmir. Bu proses "xarici təhlükəsizlik təminatçılarından asılılığın diversifikasiyası" kimi qəbul olunmalıdır. Türkiyə və Səudiyyə Ərəbistanının regional təhlükəsizlik məsələlərində daha müstəqil aktor kimi çıxış etmək istəyi xüsusi qeyd olunmalıdır. Bu, ABŞ-ın regiondakı rolunun dərhal aradan qalxması demək deyil, əksinə, daha mürəkkəb proses gedir: regional dövlətlər ABŞ-la münasibətləri saxlamaqla yanaşı, alternativ təhlükəsizlik mexanizmləri də formalaşdırmağa çalışır. Bu isə beynəlxalq münasibətlər nəzəriyyəsində çoxvektorlu təhlükəsizlik siyasəti kimi xarakterizə edilə biləcək yeni yanaşmanın güclənməsinə gətirib çıxarır.

**Məkkədən başlayan yeni geosiyasi xətt**

Məkkədə formalaşan Ər-Riyad-Ankara-İslamabad xəttini yalnız üç ölkənin hərbi əməkdaşlığı kimi qiymətləndirmək kifayət deyil. Burada daha geniş proses görünür. Səudiyyə Ərəbistanı kapital verir, Türkiyə texnologiya verir, Pakistan hərbi potensial və strateji təcrübə gətirir. Üç resurs birləşəndə isə hərbi-sənaye əməkdaşlığının yeni modeli meydana çıxır. Ekspertlər də ittifaqın əsas perspektivlərindən birinin məhz müdafiə sənayesi olduğunu vurğulayırlar. "Gulf Research Center"in rəhbəri Əbdüləziz Saqer bu formatın işlək institutlara çevriləcəyi təqdirdə üç ölkənin diplomatik və müdafiə çəkisini əhəmiyyətli dərəcədə artıra biləcəyini söyləyir. Deməli, Məkkə razılaşmasının gücü imzalanma mərasimində deyil, real güc bundan sonra yaradılacaq mexanizmlərdə özünü göstərəcək. Əgər üç ölkə birgə hərbi təlimlər, müdafiə sənayesi layihələri, hava hücumundan müdafiə sistemlərinin inteqrasiyası, dəniz təhlükəsizliyi, kəşfiyyat məlumatlarının mübadiləsi və birgə istehsal proqramlarını institusionallaşdıra bilsə, bugünkü razılaşma gələcəkdə regional təhlükəsizlik blokunun ilkin mərhələsi kimi qiymətləndirilə bilər. Əks halda bu format güclü siyasi simvolik əhəmiyyət daşıyan, lakin məhdud praktiki nəticələr verən diplomatik təşəbbüs olaraq qalacaq. Məhz buna görə Məkkə üçbucağının gələcəyi qarşıdakı illərdə onun institusional dərinliyindən, maliyyələşməsindən və real hərbi mexanizmlər yaratmaq qabiliyyətindən asılı olacaq.

Ən mühüm məsələ budur: bu ittifaq yalnız üç ölkənin müdafiəsini gücləndirəcək, yoxsa Yaxın Şərqdə onilliklər ərzində mövcud olmuş qüvvələr balansının özünü dəyişdirəcək? Bu suala cavab isə üçbucağın enerji təhlükəsizliyi, silah sənayesi, Hörmüz boğazı və İran ətrafında yaranmış regional rəqabətlə necə əlaqələnəcəyindən asılıdır.

**İran, Hindistan və ABŞ: yeni ittifaqın geosiyasi dalğası**

Məkkədə Səudiyyə Ərəbistanı, Türkiyə və Pakistan arasında formalaşan yeni müdafiə əməkdaşlığının əhəmiyyəti yalnız bu üç ölkənin hərbi potensialının cəmlənməsi ilə məhdudlaşmır. Əsl geosiyasi nəticə ondan ibarətdir ki, bu format Yaxın Şərq və Cənubi Asiyanın bir-birindən ayrı sayılan təhlükəsizlik sistemlərini müəyyən mənada eyni strateji xətt üzərində birləşdirir. Ər-Riyadın maliyyə imkanları, Ankaranın müdafiə texnologiyaları və İslamabadın hərbi-strateji potensialı artıq iki müxtəlif coğrafiyanın - Ərəbistan yarımadası və Cənubi Asiyanın təhlükəsizlik hesablamalarını bir-birinə yaxınlaşdırır. Bu səbəbdən Məkkə razılaşmasına yalnız regional müdafiə sənədi kimi baxmaq düzgün olmaz. Onun nəticələri Tehran, Dehli və Vaşinqtonda da diqqətlə izlənilir.

**İran üçün yeni təhlükəsizlik dilemması**

Məkkə üçbucağının formalaşmasının ən mühüm nəticələrindən biri İranın regional təhlükəsizlik hesablamalarına təsir edə bilməsidir. Son illər Yaxın Şərqdə təhlükəsizlik sistemi yalnız dövlətlərin birbaşa hərbi qüvvələri ilə müəyyənləşmir. Müxtəlif silahlı qruplar, raket və pilotsuz uçuş aparatı imkanları, dəniz kommunikasiyalarına təhdidlər və enerji infrastrukturu ətrafında yaranan risklər də regional qüvvələr balansının mühüm hissəsinə çevrilib. Məkkə razılaşmasının yaranması ABŞ-İran qarşıdurmasının və İranla əlaqələndirilən silahlı qrupların, o cümlədən Yəməndəki husilərin fəaliyyəti fonunda baş verir. Bu şəraitdə üç ölkənin kollektiv müdafiə mexanizmi yaratması Tehrana yeni çəkindirmə siqnalı göndərir. Burada əsas məsələ hərbi qarşıdurmanın qaçılmaz olması deyil, əksinə, ittifaqın əsas məqsədi potensial qarşıdurmanın qarşısını almaq üçün onun qiymətini yüksəltməkdir. Başqa sözlə, Tehran üçün hesab dəyişir. Əgər əvvəllər regional təzyiq ayrı-ayrı dövlətlər üzərində formalaşa bilirdisə, yeni sistemdə belə təzyiqin üç dövlətin koordinasiyalı reaksiyasına səbəb olmaq ehtimalı meydana çıxır. Bu, beynəlxalq münasibətlərdə çəkindirmə strategiyasının genişləndirilməsi deməkdir.

1831-ci ildə yaradılmış, müdafiə və təhlükəsizlik üzrə dünyanın ən qədim tədqiqat institutlarından biri sayılan Böyük Britaniyanın Kral Birləşmiş Müdafiə və Təhlükəsizlik Araşdırmaları İnstitutunun (RUSI-Royal United Services Institute for Defence and Security Studies) baş elmi əməkdaşı Burcu Özçelik də Məkkə üçbucağının formalaşmasında əsas məqsədi birbaşa eskalasiya yox, balanslaşdırma və çəkindirmə kimi qiymətləndirir. Ekspertin yanaşmasına görə, yeni format Fars körfəzi və Hörmüz boğazı ətrafında münaqişələrin genişlənməsi riskini azaltmağa yönəlmiş müdafiə konturu yarada bilər. Bu yanaşma mühüm fərqi göstərir: yeni ittifaqı avtomatik olaraq "anti-İran hərbi bloku" adlandırmaq siyasi reallığı həddindən artıq bəsitləşdirərdi. Daha düzgün yanaşma onu regional qüvvələr balansını dəyişdirən çəkindirmə mexanizmi kimi qiymətləndirməkdir.

**Hindistanın narahatlığı**

Məkkə üçbucağının qiyabi xitab etdiyi digər mühüm ünvan Dehlidir. Səbəbi sadədir: Pakistan bu ittifaqın iştirakçısıdır. Hindistan və Pakistan arasında uzunmüddətli strateji rəqabət mövcuddur və Pakistanın hərbi imkanlarının əlavə maliyyə və texnologiya hesabına genişlənməsi Dehlinin təhlükəsizlik hesablamalarına birbaşa təsir göstərə bilər. Hindistan Xarici İşlər Nazirliyinin nümayəndəsi Randhir Caysval Dehlinin prosesi diqqətlə izlədiyini və onun milli təhlükəsizlik və regional sabitlik üçün nəticələrini araşdırdığını bildirib. Bu narahatlığın arxasında üç amil dayanır: birincisi Səudiyyə Ərəbistanının maliyyə imkanlarıdır; ikincisi Türkiyənin müdafiə texnologiyalarıdır; üçüncüsü isə Pakistanın artıq mövcud olan hərbi və nüvə potensialıdır. Bu üç amil birləşəndə Hindistan üçün əsas sual belə formalaşır: Pakistanın hərbi-sənaye imkanları gələcəkdə hansı səviyyəyə qədər genişlənə bilər? Məsələnin ən həssas tərəfi də budur, çünki söhbət yalnız yeni silahların alınmasından getmir. Əgər üç ölkə arasında müdafiə sənayesi kooperasiyası uzunmüddətli proqram şəklində qurularsa, Pakistanın istehsal və texnologiya imkanları genişlənə bilər. Bu isə Cənubi Asiyada onsuz da mürəkkəb olan təhlükəsizlik dilemmasını daha da çətinləşdirər.

Lakin burada da mühüm bir fərq var. Pakistanlı ekspert Mansur Əhməd xüsusi vurğulayır ki, ölkəsinin nüvə potensialının Səudiyyə Ərəbistanına birbaşa "nüvə çətiri" şəklində ötürülməsi kimi bir nəticə çıxarmaq olmaz. Pakistanın nüvə strategiyası əsasən Cənubi Asiya təhlükəsizlik kontekstinə bağlıdır. Deməli, Hindistanın narahatlığının əsas səbəbi nüvə silahının transferindən çox müdafiə sənayesi, texnologiya və maliyyə əməkdaşlığının genişlənməsi sarıdan ola bilər.

**Vaşinqton üçün paradoks**

Məkkə üçbucağı ABŞ üçün daha mürəkkəb vəziyyət yaradır. Bir tərəfdən Vaşinqton region ölkələrinin öz təhlükəsizlik imkanlarını gücləndirməsində maraqlı ola bilər. Regional dövlətlərin öz ərazilərini, enerji infrastrukturlarını və dəniz yollarını daha effektiv müdafiə etməsi ABŞ-ın üzərinə düşən təhlükəsizlik yükünü müəyyən qədər azalda bilər. Digər tərəfdən isə müstəqil regional təhlükəsizlik mexanizmlərinin güclənməsi Birləşmiş Ştatların regiondakı ənənəvi siyasi və hərbi təsir rıçaqlarını zəiflədə bilər. ABŞ-ın razılaşmanı müdafiə xarakterli addım kimi qiymətləndirməsinə baxmayaraq, Vaşinqton üçün əsas strateji sual regional dövlətlərin müstəqil təhlükəsizlik sistemi qurmasıdır. Bu, Yaxın Şərqdə son illərdə müşahidə olunan daha geniş tendensiyanın bir hissəsidir. Regional dövlətlər artıq təhlükəsizliyi yalnız bir böyük gücün təminatına bağlamaq istəmir. Ər-Riyadın müxtəlif güc mərkəzləri ilə münasibətlər qurması, Ankaranın müstəqil xarici siyasət xəttini gücləndirməsi və İslamabadın müxtəlif regional tərəfdaşlarla əməkdaşlığı genişləndirməsi daha çoxvektorlu sistemin yaranmasına gətirib çıxarır. Belə bir sistemdə ABŞ yenə də əsas aktorlardan biri olaraq qalır, lakin artıq yeganə təhlükəsizlik təminatçısı rolunda çıxış etməsi çətinləşir.

**Hörmüz boğazı - ittifaqın strateji hədəfi**

Məkkə razılaşmasının geosiyasi əhəmiyyətini tam anlamaq üçün Hörmüz boğazının roluna xüsusi diqqət yetirmək lazımdır. Bu su yolu dünya enerji təhlükəsizliyi baxımından ən strateji kommunikasiya xətlərindən biridir. Fars körfəzi ilə Oman körfəzini birləşdirən Hörmüz boğazında hər hansı ciddi təhlükəsizlik böhranı yalnız region dövlətlərinin yox, dünya enerji bazarlarının da reaksiyasına səbəb ola bilər. Son dövrlər Fars körfəzi ətrafında artan gərginlik və dəniz nəqliyyatına hücum risklərinin çoxalması neft ixracına əlavə təhlükələr yaradır, tankerlərin sığorta xərclərini yüksəldir. Burada bir məqam xüsusi əhəmiyyət daşıyır: neft bazarında qiymət yalnız hasilat həcmi ilə müəyyənləşmir, təchizatın təhlükəsizliyi, daşınma xərcləri, sığorta haqları və marşrutların etibarlılığı da qiymətin formalaşmasına birbaşa təsir edir. Deməli, Hörmüz boğazında təhlükəsizlik riskinin artması neft hasilatının azalmasını gözləmədən belə bazarda qiymət təzyiqi yarada bilər. Bu baxımdan Səudiyyə Ərəbistanı üçün enerji infrastrukturu milli təhlükəsizlik məsələsidir, Ər-Riyadın enerji ixracının təhlükəsizliyi pozularsa, nəticə yalnız hərbi deyil, həm də fiskal və makroiqtisadi xarakter ala bilər. Məhz buna görə yeni ittifaqın dəniz təhlükəsizliyi və hava hücumundan müdafiə imkanlarını genişləndirmə ideyası strateji əhəmiyyət daşıyır.

**Neft, müdafiə sənayesi və təhlükəsizlik bir sistem çərçivəsində**

Məkkə razılaşmasının ən maraqlı tərəfi təhlükəsizliklə iqtisadiyyatı bir-birindən ayırmamasıdır. Əvvəllər müdafiə ittifaqı əsasən hərbi təhlükəyə cavab mexanizmi kimi qiymətləndirilirdi, indi isə enerji infrastrukturu, limanlar, tankerlər, hava hücumundan müdafiə sistemləri, pilotsuz uçuş aparatları, elektron müharibə vasitələri və müdafiə sənayesi eyni strateji sistemin elementlərinə çevrilir. Bu sistem çərçivəsində, dediyimiz kimi, Türkiyənin texnologiyası, Pakistanın hərbi-sənaye və insan resursları, Səudiyyə Ərəbistanının isə maliyyə imkanları vahid müdafiə sənayesi zəncirini formalaşdıra bilər.

Bu modelin iqtisadi məntiqi olduqca aydındır. Səudiyyə Ərəbistanı hazır silah almaq əvəzinə, istehsal zəncirinin bir hissəsinə çevrilmək istəyir. Türkiyə müdafiə məhsulları üçün daha böyük maliyyə və regional bazar əldə edə bilər. Pakistan isə yeni investisiya və texnologiya imkanları qazanar. Beləliklə, ittifaqın hər üç iştirakçısı iqtisadi fayda götürür. Bu isə razılaşmanın davamlılığı baxımından mühüm faktordur, çünki yalnız siyasi marağa əsaslanan ittifaqların davamlılığı daha zəif olur.

**"İslam NATO-su" adlandırmaq doğrudurmu?**

Yeni üçtərəfli format ətrafında "İslam NATO-su" kimi siyasi ifadələrin işlədilməsi müəyyən mənada başadüşüləndir, çünki kollektiv müdafiə prinsipi, qarşılıqlı təhlükəsizlik öhdəliyi və üç ölkənin hərbi imkanlarının birləşdirilməsi belə müqayisəyə əsas verir. Lakin analitik baxımdan bu iki strukturu tam eyniləşdirmək düzgün olmaz. NATO onilliklər ərzində formalaşmış, çoxsaylı üzvlərə, daimi komanda strukturuna, hərbi planlaşdırma sisteminə və geniş institusional mexanizmlərə malik təşkilatdır. Məkkə formatı isə hələ ilkin mərhələdədir. Onun gələcək gücü razılaşmanın mətnindən çox, sonrakı praktik addımlarla müəyyənləşəcək. Birgə qərargah yaradılacaqmı? Birgə hərbi təlimlər hansı miqyasda keçiriləcək? Hava hücumundan müdafiə sistemləri inteqrasiya ediləcəkmi? Dəniz qüvvələri Hörmüz boğazı və digər strateji marşrutlarda koordinasiyalı fəaliyyət göstərəcəkmi? Müdafiə sənayesi layihələrinə konkret maliyyə ayrılacaqmı? Bütün bu sualların cavabı verilməmiş, yeni formatın tamhüquqlu hərbi ittifaqa çevrildiyini söyləmək tezdir.

**Əsl dəyişiklik harada baş verir?**

Əsl dəyişiklik hərbi texnikanın sayında deyil, təhlükəsizlik düşüncəsinin dəyişməsindədir. Ər-Riyad, Ankara və İslamabadın mesajı ondan ibarətdir ki, regional dövlətlər öz təhlükəsizliklərinin təmin edilməsi naminə daha çox məsuliyyət götürmək istəyirlər. Bu, Yaxın Şərqdə xarici təminatlara əsaslanan ənənəvi modeldən regional güclərin öz təhlükəsizlik mexanizmlərini yaratdığı modelə keçidin göstəricisi ola bilər. Proses davam edərsə, qarşıdakı illərdə Yaxın Şərqdə yalnız bir neçə böyük gücün yox, bir neçə regional güc mərkəzinin paralel fəaliyyət göstərdiyi daha mürəkkəb sistem formalaşa bilər. Məkkə üçbucağının ən mühüm nəticəsi də məhz budur: region dövlətləri artıq təhlükəsizlik arxitekturasının yalnız obyekti yox, onu formalaşdıran subyekti olmaq istəyir. Lakin qarşıda ciddi suallar durur: İran bu yeni təhlükəsizlik mexanizminə necə cavab verəcək? Hindistan-Pakistan rəqabəti yeni əməkdaşlığa hansı təsiri göstərəcək? ABŞ regional təhlükəsizlik sistemindəki rolunu yenidən necə müəyyənləşdirəcək? Türkiyə, Səudiyyə Ərəbistanı və Pakistanın maraqları hər zaman üst-üstə düşəcəkmi? Və ən əsası, on milyardlarla dollarlıq müdafiə xərcləri real hərbi inteqrasiyaya çevriləcəkmi?

Məkkə razılaşmasının tarixi əhəmiyyətini bu suallara verilən cavablar müəyyənləşdirəcək. Çünki üç ölkənin eyni siyasi masa arxasında oturması bir hadisədir, həmin masanın işlək təhlükəsizlik mexanizminə çevrilməsi isə tamam başqa məsələdir.



***Kəramət QƏNBƏROV,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət qulluğu və kadr siyasəti" kafedrasının müəllimi, beynəlxalq hüquq üzrə ekspert***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"PressInform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**






# Böyük arzuların kiçik addımlardan başladığı dövr

## Gənclik varsa, gələcəyə ümid var...

Gənclik insan ömrünün ən dinamik, enerjili və ümidli dövrüdür. Bu illər insanın yalnız yaşadığı bir mərhələ deyil, həm də gələcəyini qurduğu, arzularını gerçəkliyə çevirməyə çalışdığı xüsusi bir zaman kəsiyidir. Gənclik həm də öyrənmək üçün böyük imkanlar dövrüdür. İnsan bu yaşlarda səhvlərindən nəticə çıxarmağı, uğursuzluqlardan sonra yenidən ayağa qalxmağı öyrənir. Ən əsası isə özünə inanmağın əhəmiyyətini anlayır.

Artıq 28 ildir ki, avqustun 12-si dünyada Beynəlxalq Gənclər Günü kimi qeyd olunur. Belə bir qərar 1998-ci il avqustun 8-dən 12-dək Lissabonda gənclərlə iş üzrə nazirlərin iştirakı ilə keçirilən beynəlxalq konfransda qəbul olunub. Gənclərə lazımi diqqət göstərmək məqsədilə qeyd olunan bu tarix gənclərin nailiyyətlərini geniş təbliğ etmək, cəmiyyətin bütün sahələrində onların iştirakını təmin etmək üçün yaradılıb.

### Gələcəyə qoyulan sərmayə

Bu gün dünyanın sürətlə dəyişdiyi bir vaxtda gənclərin rolu daha da artır. Texnologiya, elm, süni intellekt, sahibkarlıq və yaradıcılıq sahələrində yeni ideyaların böyük hissəsi gənclər tərəfindən irəli sürülür. Onlar rəqəmsal dünyanın imkanlarından daha çevik istifadə edirlər. Gənclər həm də cəmiyyətin gələcək simasını formalaşdırırlar. Bu gün məktəbdə, universitetdə, iş həyatında və ictimai fəaliyyətdə olan gənc sabah ölkənin müxtəlif sahələrində qərar verən şəxslərdən biri olacaq. Ona görə də gənclərə yaradılan imkan əslində gələcəyə qoyulan sərmayədir.

Amma gənclik yalnız uğur və imkanlardan ibarət deyil. Bu dövrdə seçimlərin çoxluğu bəzən insanı çətin vəziyyətdə də qoya bilər. Peşə seçimi, gələcəklə bağlı qərarlar, sosial münasibətlər və həyatın digər sınaqları gənclər üçün ciddi məsuliyyət yaradır. Belə məqamda ailənin, təhsilin və cəmiyyətin dəstəyi mühüm rol oynayır. Gənclərə yalnız yol göstərmək kifayət etmir. Onlara öz yolunu seçmək üçün imkan da vermək lazımdır. Çünki gənclik azad düşüncənin, təşəbbüsün və yaradıcılığın ən güclü çağlarından biridir.

### Dövlət siyasətinin mühüm istiqamətlərindən biri

Ölkəmizdə həyata keçirilən siyasətlərdən biri də gənclərin hərtərəfli inkişafına şərait yaratmaqdır. Məqsəd onların təhsil alması, peşə qazanması və ictimai həyatda fəal iştirak etməsi üçün imkanları genişləndirməkdir. Gənclərin hüquqlarının qorunması da dövlət siyasətimizin əsas istiqamətlərindəndir. Onların təşəbbüslərinin dəstəklənməsi, yaradıcılıq imkanlarının artırılması və ictimai fəallığının stimullaşdırılması xüsusi əhəmiyyət daşıyır.

### Təhsildən əmək bazarına uzanan yol

Gənclərin gələcəyinin qurulmasında təhsilin rolu danılmazdır. Müasir dövrdə yalnız diplom kifayət etmir. Gənclər həm də əmək bazarının tələblərinə uyğun bilik və bacarıqlara sahib olmalıdır.

Bu baxımdan müxtəlif təhsil və inkişaf proqramları gənclər üçün yeni imkanlar yaradır. Peşə hazırlığı, könüllülük, təcrübə proqramları və müxtəlif layihələr gənclərin praktiki bacarıqlarının formalaşmasına kömək edir. Əmək bazarına yeni daxil olan gənc üçün ilk addım xüsusilə vacibdir. Bu mərhələdə yaradılan hər bir imkan onun gələcək karyerasına təsir göstərə bilər.

### Gənc sahibkarlara yeni imkanlar...

Son illərdə gənclər arasında sahibkarlığa maraq da artır. Öz biznesini qurmaq istəyən gənclərin ideyalarının dəstəklənməsi bu baxımdan mühüm əhəmiyyət daşıyır. Startaplar və innovativ layihələr üçün yaradılan imkanlar gənclərə öz ideyalarını reallaşdırmaq şansı verir. Bəzən böyük bir biznes ideyası məhz kiçik bir təşəbbüsdən başlayır.

Gənclərin öz işini qurması yalnız onların şəxsi uğuru deyil. Bu, həm də yeni iş yerlərinin yaranmasına və ölkəmizdə iqtisadi fəallığın artmasına töhfə verir.

### Könüllülük: Gənclərin həyat məktəbi

Azərbaycanda könüllülük hərəkatının genişlənməsi də gənclərin ictimai fəallığı baxımından diqqətçəkən məqamlardandır. Könüllülük gənclərimizə yalnız təcrübə qazandırmır, həm də komanda ilə işləməyi, məsuliyyət daşımağı və insanlarla düzgün ünsiyyət qurmağı öyrədir.

Bu fəaliyyət gənclərin cəmiyyətə bağlılığını da gücləndirir. Onlar öz əməyinin kiməsə fayda verdiyini gördükcə, ictimai proseslərdə daha fəal iştirak etməyə başlayırlar. Bu gün Azərbaycan gəncləri müxtəlif sahələrdə özlərini göstərirlər. Elm, təhsil, idman, mədəniyyət, texnologiya, media və sahibkarlıq sahələrində uğur qazanan gənclərin sayı artır.

Onların beynəlxalq yarışlarda, forumlarda və müxtəlif layihələrdə ölkəni təmsil etməsi də mühüm məqamdır. Hər bir uğur Azərbaycanın gənclər potensialının göstəricisinə çevrilir.

### Qarabağ və Zəngəzurda gənclər üçün yeni üfüqlər

İşğaldan azad edilmiş ərazilərimizin bərpası da gənclərimiz üçün yeni imkanlar yaradır. Burada qurulan şəhər və kəndlər, yaradılan infrastruktur və yeni layihələr gələcəkdə gənclərin təhsil, əmək və sosial fəaliyyətləri üçün geniş perspektivlər vəd edir. Gənc nəslin bu prosesdə iştirakı xüsusi əhəmiyyət daşıyır. Çünki Qarabağın və Şərqi Zəngəzurun gələcəyi həm də orada yaşayacaq, işləyəcək və yeni həyat quracaq gənclərin fəallığından asılıdır.

*Yeganə BAYRAMOVA*

# Mavi sərvətin taleyi

## Xəzərin dalğaları tariximiz, sahilləri isə gələcəyimizdir...

Bu gün dünyanın ən böyük qapalı su hövzələrindən biri olan Xəzərin əhəmiyyətini xatırladan xüsusi gündür. Belə ki, 2006-cı ilin bu günündə "Xəzər dənizinin ətraf mühitinin mühafizəsi haqqında Çərçivə Konvensiyası"nın qüvvəyə minməsindən sonra hər il avqustun 12-si Xəzər Günü kimi qeyd olunur. Xəzər yalnız xəritədə olan böyük mavi sahə deyil. O, tarixdir, təbiətdir, iqtisadiyyatdır.

Xəzər həm də yaddaşdır. Onun dalğaları neçə-neçə nəslin hekayəsini daşıyır. Sahillərində qurulan qədim yaşayış məskənlərindən müasir Bakı limanına qədər böyük bir tarix bu dənizin ətrafında formalaşıb. Bu gün Xəzərə baxanda yalnız sonsuz su səthini görmək kifayət deyil. Orada Azərbaycanın iqtisadi keçmişini, təbiətinin zənginliyini və gələcəyə dair imkanlarını da görmək mümkündür.

### Ekoloji tarazlıq təhlükədə...

Son 30 il ərzində iqlim dəyişmələri Xəzər dənizinin hövzəsində özünü daha həssas göstərib. Bunun nəticəsində Xəzər dənizinin sahil boyunda yaşayan əhali ciddi iqlim dəyişmələrinin, dənizin su səviyyəsinin tərəddüdünün, sel və quraqlıqların mənfi təsirlərinə daha çox məruz qalıb. İqlim dəyişmələri səbəbindən Xəzər dənizinin səviyyəsinin aşağı düşməsi region üçün potensial təhlükəyə çevrilib. Dənizə tökülən çayların suyunun azalması yağıntıların miqdarının azalması ilə bərabər, həm də çay sularından kənd təsərrüfatının artan tələbatının ödənilməsi ilə yönəldilməsi ilə də izah edilir.

Xəzər dənizinin ətraf mühitinin bugünkü vəziyyəti ilə əlaqədar bütün sahilyanı dövlətlər narahatlıq keçirir. Dənizin ətraf mühitinin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə məsələləri Xəzəryanı ölkələrin milli siyasətinin prioritet istiqamətlərindəndir. Azərbaycanda da Xəzər dənizinin ətraf mühitinə mənfi təsirləri minimuma endirmək üçün tədbirlər görülür.

### Xəzərin suyu azalır: Səbəb yalnız iqlim deyil

Bütövlükdə, regionumuzda Xəzər böyük iqlim əmələgətirən təsirə malikdir. Eyni zamanda, Xəzər və dəniz ekosistemi iqlimin istiləşməsinə həssasdır. Qlobal temperaturun sürətlə artması son onilliklərdə özünü daha güclü göstərməkdədir. Bu, ümumilikdə azalan su ehtiyatlarından istifadənin artması fonunda dənizə tökülən çayların axınının azalmasına gətirib çıxarır. Digər tərəfdən, temperaturun artması dəniz səthindən buxarlanmanın çoxalmasına səbəb olur. XX əsrdə səviyyənin ən aşağı göstəricisi 1977-ci ildə, yəni dəniz səviyyəsindən 29 metr aşağı qeydə alınıb. Lakin 1995-ci ilə qədər sonrakı onilliklərdə, nisbətən qısa müddətdə səviyyə - 26,5 metr həddinə çatıb. Bu da illər ərzində səviyyənin 2,5 metr yüksəlməsini göstərirdi. 1995-ci ildən bugünədək 31 ildir ki, Xəzər yenidən səviyyəsinin aşağı düşməsi mərhələsindədir. Hazırda Xəzərin səviyyəsi dünya okean səviyyəsindən 28,6 metr aşağıdır. Keçən əsrin minimumundan isə bizi 40 santimetr fərq ayırır.

### 500-dən çox bitki, 850 növ heyvan...

Okean mənşəli dünyanın ən böyük daxili su hövzəsi olan Xəzəri haqlı olaraq əsl relikt və heyrətamiz təbiət abidəsi adlandırmaq olar. Bugünədək qorunub saxlanılan ən zəngin flora və fauna aləmi bütün bəşəriyyətin mülkiyyətidir. Dənizin endemikliyində və sahilyanı ərazilərdə Beynəlxalq Təbiəti Mühafizə İttifaqının Qırmızı Kitabına daxil edilmiş 500-dən çox bitki və 850 növ heyvan, o cümlədən nadir və endemik növlər yaşayır.

Xəzər həm də mühüm nəqliyyat və logistika məkanıdır. Dəniz üzərindən həyata keçirilən daşımalar Azərbaycanı region ölkələri ilə əlaqələndirir. Bakı limanı və Ələt ərazisində formalaşan nəqliyyat imkanları Xəzərin strateji əhəmiyyətini daha da artırır. Bu dənizin sahilləri həm də istirahət və turizm

### Sahil küləyi, mavi üfüq və böyük imkanlar

üçün cəlbedici məkanlardır. Yay aylarında minlərlə insan Xəzərin sahillərinə üz tutur. Dənizin mavi görüntüsü, sahil küləyi və gün batımı Bakı mənzərəsinin ayrılmaz hissəsinə çevrilib.

Göründüyü kimi, Xəzərin qorunması yalnız bir ölkənin deyil, onun sahilində yerləşən bütün dövlətlərin ortaq məsuliyyətidir. Xəzər Günü də məhz bu baxımdan mühüm mesaj verir. Biz Xəzərdən yalnız istifadə etməməliyik, onu qorumalıyıq. Çünki Xəzər təbiətin bizə bəxş etdiyi sərvət olmaqla yanaşı, gələcək nəsillərə ötürməli olduğumuz böyük bir mirasdır. Xəzər əsrlərdir sahillərimizə toxunan dalğaları ilə tariximizi müşayiət edir. Onun qorunması isə bu tarixin gələcəkdə də davam etməsi deməkdir.

*Yeganə BAYRAMOVA*




Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4489**
**Sifariş: 1042**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova